## FHN intiharın qarşısını alıb

Vətəndaşla aparılan psixoloji söhbətlər nəticə verib



**Fövqəladə Hallar Nazirliyinin (FHN) "112" qaynar telefon xəttinə daxil olan məlumata əsasən, Bakı şəhərinin Yasamal rayonunda 1 nəfər körpüyə çıxaraq intihar etmək istəyini nümayiş etdirib.**

Fövqəladə Hallar Nazirliyindən bildirilib ki, müvafiq xilasetmə qüvvələri dərhal hadisə yerinə cəlb olunub.

Vətəndaşla aparılan psixoloji söhbətlər nəticəsində o, özünə qəsd etmək fikrindən daşınıb.



## DSX-nin hərbçisi yaşadığı xidməti mənzildə intihar edib

**Dövlət Sərhəd Xidmətinin Sərhəd Nəzarətinin Ağstafa rayonu ərazisində yerləşən şöbəsinin həqiqi hərbi xidmət hərbi qulluqçusu gizir Əlizadə Tərlan Rafiq oğlu yaşadığı xidməti mənzildə intihar edib.**

Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən Trend-ə verilən məlumata görə, faktla əlaqədar prokurorluq orqanlarının əməkdaşları ilə birlikdə araşdırma tədbirləri həyata keçirilir.


№ 81 (5603), 2022-ci il

# ŞƏRQ

Günəş Şərqdən doğur!

Qiyməti 40 qəpik

www.sherg.az 12 may 2022-ci il (cümə axşamı)




## Siyasi dialoq davam edir

Prezident Administrasiyasında növbəti görüş keçirilib

**Siyasi dialoq prosesləri çərçivəsində Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin siyasi partiya sədrləri ilə görüşləri artıq iki ildir davamlı şəkildə təşkil olunur. Növbəti görüş mayın 11-də Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə ilə keçirilib.**

Bu barədə "Şərq"ə Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən bildiriblər.

Görüşdə şöbə müdiri Ədalət Vəliyev dünyada cərəyan edən geosiyasi proseslərin ölkədə siyasi həmrəylik mühitinin qorunmasını şərtləndirdiyini xüsusi vurğulayıb. "Bilavasitə milli maraqlara cavab verən məsələlərdə siyasi partiyalar ilə əməkdaşlıq ölkədə reallaşan siyasi dialoqun prioritet istiqamətlərindən biridir", - deyən Ədalət Vəliyev qeyd edib ki, Azərbaycana qarşı aparılan informasiya təxribatları ilə mübarizədə siyasi partiyaların bütün potensialları səfərbər olunmalıdır.

(səh.2)



## Paşinyan məlumat yaydı

Yaxın vaxtlarda Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşü gözlənilir

**Yaxın vaxtlarda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü planlaşdırılır**

Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramovla Ararat Mirzoyanın, eləcə də iki ölkə nümayəndələrinin sərhədin demarkasiyası və delimitasiyası məsələləri üzrə görüşü yaxın vaxtlarda baş tutacaq.

"Report" TASS-a istinadən xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan Hollandiyada Beynəlxalq Münasibətlər İnstitutunda mühazirə zamanı deyib.

"Yaxın vaxtlarda demarkasiya və delimitasiya üzrə nümayəndələrimizin görüşü planlaşdırılır, həmçinin xarici işlər nazirlərinin görüşü baş tutacaq. Biz çox çətin yollardan keçmişik, amma bu gün məndə dərin əminlik var ki, düzgün yoldayıq", - Paşinyan bildirib.

## XİN açıqladı

Yanan gəmidə Azərbaycan vətəndaşları olmayıb



**Ötən gün Azov dənizində Temrük yaxınlığında taxıl daşıyan Türkiyə gəmisində yanğın baş verib. Yanğının ekipaj tərəfindən söndürüldüyü bildirilirdi.**

Yayılan məlumatlara əsasən, Vanuatu bayrağı altında üzən "Aqua" adlı yük gəmisinin göyərtəsində Azərbaycan, Türkiyə və Hindistan vətəndaşı olan 13 nəfər olub. Hadisə nəticəsində bir nəfər həyatını itirib.

Trend məsələ ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) ilə əlaqə saxlayıb.

XİN-in Mətbuat xidmətindən bildirilib ki, ilkin məlumatlara görə, sözügedən gəmidə Azərbaycan vətəndaşları olmayıb.

# ABŞ kəşfiyyatı xəbərdarlıq edib

Putin uzunmüddətli müharibəyə hazırlaşır



**ABŞ kəşfiyyatı Rusiya Prezidenti Vladimir Putinin "əsl niyyətlərini" təsvir edərək, onun Ukraynada uzunmüddətli müharibəyə hazırlaşdığını və hətta şərqdəki qələbənin belə potensial olaraq münaqişəyə son qoymayacağı barədə xəbərdarlıq edib.**

"Şərq" qəzeti Türkiyənin "milliyet.com.tr" saytına istinadən xəbər verir ki, ABŞ-ın xəbərdarlığı Rusiyanın torpaq almağa çalışdığı şərqdə şiddətli döyüşlərin davam etdiyi bir vaxtda edilib. Ukraynanın paytaxtı Kiyevi ələ keçirmək cəhdlərinə müqavimət göstərən Moskva öz qoşunlarını yenidən Donbass bölgəsini ələ keçirməyə yönəldib. Lakin buna baxmayaraq, ABŞ kəşfiyyatı Rusiya qüvvələrinin çıxılmaz vəziyyətdə qaldığını bildirib. Son münaqişələrdə Ukrayna Xarkov vilayətinin şimal-şərqində yerləşən dörd yaşayış məntəqəsini geri aldığını iddia edib.

(səh.3)

# Zamanın tələbi...

Qazaxıstan üzünü yenə Türkiyəyə çevirdi



**Türkiyədə səfərdə olan Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən rəsmi mərasimlə qarşılanıb.**

Rəsmi qarşılama mərasimindən sonra liderlər arasında təkbətək görüş keçirilib. Bundan əlavə, nümayəndə heyətləri arasında da görüşlər olub və bir sıra sazişlər imzalanıb.

Qeyd edək ki, bu, Tokayevin vəzifəyə gəldikdən sonra Türkiyəyə ilk dövlət səfəridir.

(səh.2)



## Rusiyanın əmlakları müsadirə olunacaq

Zelenski fərmanı Radaya təqdim edib

**Ukrayna Prezidenti Volodimir Zelenski Rusiya Federasiyasının və onun sakinlərinin mülkiyyət hüququ obyektlərinin məcburi müsadirə edilməsi haqqında fərmanı Ali Radaya təqdim edib.**

"Report" "İnterfaks-Ukrayna"ya istinadən xəbər verir ki, fərmanı təsdiq edən müvafiq qanun layihəsi Ukrayna parlamentinin saytında 7371 nömrəli qeydiyyatdan keçib.

Fərman 6 aydan gec olmayaraq Ukrayna Ali Radası tərəfindən təsdiq edilməlidir.

*Qeyd edilir ki, Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurası 2022-ci il mayın 11-də Rusiyanın mülki obyektlərini zorla müsadirə etmək barədə qərar qəbul edib.*

## Daha 13 nəfər koronavirusa yoluxub

Ölən yoxdur, 3 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 13 yeni yoluxma faktı qeydə alınıb, 3 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən xəbərə görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 792 651 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 782 872 nəfər müalicə olunaraq sağalıb, 9 709 nəfər vəfat edib, aktiv xəstə sayı 70 nəfərdir.

*Ölkədə son sutka ərzində 3 861, hazırkı dövrədək isə 6 842 319 test aparılıb.*

## Məzahir Süleymanzadə haqqın dərgahına qovuşdu

Azərbaycan xalqı "Səhər"i heç vaxt unutmayacaq



**Mayın 11-i iş günümüz üzücü xəbərlə başladı; Məzahir Süleymanzadə vəfat edib.**

Jurnalistlər üçün Məzahir Süleymanzadənin əlavə təqdimatına heç vaxt ehtiyac duyulmayıb. Məzahir Süleymanzadə Azərbaycan mətbuat tarixinə adını "Səhər"lə yazdıran şəxsdir. Belə də qalacaq. Azərbaycan xalqı "Səhər"i heç vaxt unutmayacaq.

(səh.4)



## Əfv müraciətlərinin siyahısı genişlənir

Novella Cəfəroğlu: "Biz də Komissiyaya 39 nəfərlik siyahı təqdim etmişik"

(səh.2)



## Şuşa türk birliyinin simvoludur

Bu şəhərdə Türkiyə konsulluğunun yaradılması önəmlidir

(səh.4)





# Siyasi dialoq davam edir

## Prezident Administrasiyasında növbəti görüş keçirilib

**Siyasi dialoq prosesləri çərçivəsində Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin siyasi partiya sədrləri ilə görüşləri artıq iki ildir davamlı şəkildə təşkil olunur. Növbəti görüş mayın 11-də Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə ilə keçirilib.**

Bu barədə "Şərq"ə Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən bildiriblər.

Görüşdə şöbə müdiri Ədalət Vəliyev dünyada cərəyan edən geosiyasi proseslərin ölkədə siyasi həmrəylik mühitinin qorunmasını şərtləndirdiyini xüsusi vurğulayıb. "Bilavasitə milli maraqlara cavab verən məsələlərdə siyasi partiyalar ilə əməkdaşlıq ölkədə reallaşan siyasi dialoqun prioritet istiqamətlərindən biridir", - deyən Ədalət Vəliyev qeyd edib ki, Azərbaycana qarşı aparılan informasiya təxribatları ilə mübarizədə siyasi partiyaların bütün potensialları səfərbər olunmalıdır. 1992-ci ildə yaradılmış Azərbaycan Milli İstiqlal Partiyasının Avropa Xalq Partiyası da daxil olmaqla geniş beynəlxalq əməkdaşlıq əlaqələrinə malik olduğunu qeyd edən şöbə müdiri bildirib ki, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında mövcud əlaqələrdən səmərəli şəkildə istifadə olunmalıdır.

Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə ölkəmizdə yeni siyasi konfiqurasiyanın formalaşmasını yüksək qiymətləndirib, bu prosesin demokratik dəyərlərin möhkəmləndirilməsi, siyasi mədəniyyətin yüksəlməsinə xüsusi dəstək olduğunu bildirib. O, ölkədə bütün siyasi qüvvələrin ümummilli məsələlərdə, dövlətçiliyin möhkəmlənməsində bir güc kimi olmasının vacibliyini qeyd edib.

Görüşdə digər məsələlərlə yanaşı, İkinci Qarabağ müharibəsində qazanılmış Qələbədən sonra regionda yaradılmış yeni reallıq mövzusu da geniş müzakirə olunub. Bildirilib ki, qazanılmış Qələbə və ölkənin müxtəlif iqtisadi təşəbbüsləri sayəsində Azərbaycanın dünya siyasi xəritəsində çəkisi əsaslı şəkildə artıb. Dayanıqlı inkişaf naminə iqtidar-müxalifət münasibətlərinin məhz konstruktiv əməkdaşlıq formatında inkişaf olunması üçün qarşılıqlı səylər artırılmalıdır. Bu cür əməkdaşlıq formatı əldə olunmuş uğurların qorunmasına xidmət edəcək və təhdid xarakterli müxtəlif təxribatların qarşısının alınmasına da töhfə verəcək.

Administrasiya rəsmisi Azərbaycan Milli İstiqlal Partiyasının ölkəmizdə həyata keçirilən iqtidar-müxalifət dialoqunda fəal iştirak etməsini, o cümlədən ümummilli məsələlərə bağlı birgə bəyanatlara və müraciətlərə qoşulmasını, siyasi partiyaların birgə iclaslarında və azad olunmuş ərazilərə birgə səfərlərdə iştirakını, siyasi partiyalar haqqında qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər verməsini, həmçinin Mərkəzi Seçki Komissiyasına maliyyə hesabatlarının vaxtında və tələb olunan qaydada təqdim etməsini yüksək qiymətləndirib və bu halların partiyanın imicinə müsbət təsir edən önəmli amillər olduğunu bildirib.

Söhbət zamanı Arzuxan Əlizadə rəhbərlik etdiyi partiyanın 30 illik yubileyi ilə əlaqədar müvafiq tədbirlərin keçirilməsinə hazırlaşdıqlarını qeyd edib.

## Səfa Mirzəyev 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edildi



**Prezident İlham Əliyev Səfa Abbas oğlu Mirzəyevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Səfa Abbas oğlu Mirzəyev 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

# İlk dəfə...

## Azərbaycan və Paraqvay XİN-ləri arasında siyasi məsləhətləşmələr keçirilib



**Latın Amerikası dövlətlərinə səfəri çərçivəsində Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədovun 10 may 2022-ci il tarixində Paraqvayın xarici işlər naziri Xulio Ariola ilə görüşü keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat idarəsindən "Şərq"ə verilən xəbərə görə, görüşdə ölkələrimiz arasında əlaqələrin səviyyəsi yüksək qiymətləndirilib, Azərbaycan -Paraqvay arasında aparılan siyasi dialoqun vacibliyi vurğulanıb. Müxtəlif istiqamətlərdə, o cümlədən energetika, kənd təsərrüfatı və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün mövcud imkanlar müzakirə edilib.

Azərbaycan tərəfi Paraqvayın ölkəmizin ərazi bütövlüyünün və suverenliyi ardıcıl və davamlı şəkildə dəstəklədiyini görə təşəkkür ifadə edib.

Görüşdə, həmçinin Azərbaycan və Paraqvay arasında beynəlxalq təşkilatlar çərçivəsində tərəfdaşlıq və qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

10 may 2022-ci il tarixində Paraqvayın paytaxtı Asunsyon şəhərində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Paraqvay Respublikasının Xarici İşlər Nazirliyi arasında ilk dəfə olaraq siyasi məsləhətləşmələr keçirilib.

Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Elnur Məmmədov, Paraqvay tərəfindən isə bu ölkənin xarici işlər nazirinin müavini Raul Rikyardi rəhbərlik etdiyi nümayəndə heyətləri siyasi məsləhətləşmələr zamanı ikitərəfli münasibətlərin mövcud vəziyyəti, habelə siyasi, iqtisadi, enerji, kənd təsərrüfatı və humanitar sahələrdə qarşılıqlı tərəfdaşlığın genişləndirilməsi məsələlərini müzakirə ediblər.

*Bununla yanaşı, tərəflər regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq perspektivlərinin inkişafına dair fikir mübadiləsi aparıblar.*



# Zamanın tələbi...

## Qazaxıstan üzünü yenə Türkiyəyə çevirdi

İsmayıl Qocayev

**Türkiyədə səfərdə olan Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən rəsmi mərasimlə qarşılanıb. Rəsmi qarşılama mərasimindən sonra liderlər arasında təkbətək görüş keçirilib. Bundan əlavə, nümayəndə heyətləri arasında da görüşlər olub və bir sıra sazişlər imzalanıb.**

Qeyd edək ki, bu, Tokayevin vəzifəyə gəldikdən sonra Türkiyəyə ilk dövlət səfəridir. Prezident Ərdoğan görüş zamanı bildirib ki, Rusiya-Ukrayna müharibəsi türk dövlətləri arasında istər ikitərəfli formatda, istərsə də Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın vacibliyini bir daha göstərdi. Bildirib ki, qazax liderin Türkiyəyə səfəri zamanı imzalanmış sənədlər iki ölkə arasındakı münasibətləri strateji əməkdaşlıq səviyyəsinə yüksəldib: "Əməkdaşlığımızı həm ikitərəfli, həm də çoxtərəfli platformalarda daha da dərinləşdirməliyik. Qazax qardaşlarımızın sabitliyi, rifahı və təhlükəsizliyi üçün əlimizdən gələn hər şeyi edəcəyik. Siyasi, hərbi, iqtisadi, ticari və ya mədəniyyət olmaqla bütün sahələrdə həmrəyliyimizi artıraraq gələcəyə çiyin-çiyinə addımlayacağıq". Bundan əlavə, Ərdoğan Türkiyə ilə Qazaxıstan arasında ticarət dövriyyəsinin keçən il 58 faiz artaraq 5 milyard 300 milyon dolları keçdiyini də vurğulayıb.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev də öz növbəsində Türkiyədən hər zaman yaxşılıq gördüyünü deyib. O, Türkiyə ilə əməkdaşlığın ölkəsi üçün böyük əhəmiyyət kəsb etdiyini, Ankaranın vacib strateji müttəfiq olduğunu qeyd edib: "Türkiyənin hər zaman Qazaxıstana dəstək olduğunu bilirik, biz bunu həmişə hiss edirik. Bu gün görüşlərimizin nəticəsi olaraq, önəmli sazişlərə nail olduq. Bu səfər siyasi, ticari, iqtisadi, hərbi, humanitar, mədəni və digər sahələrdə olan əməkdaşlığımızı dərinləşdirməyə imkanlar yaradacaq".

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə deyib ki, 2022-ci ilin yanvarında Qazaxıstanda cərəyan edən hadisələr Rusiyanın həmin regionda daha təsirli və ambisiyalı olduğunu ortaya qoydu. Bu, Kremlin hər rəqiblərinə, həm də onunla pərdəli dostluq saxlayan ölkəyə - Türkiyəyə əhəmiyyətli xəbərdarlıq siqnalı idi:** "Ankaranın xarici siyasətində Asiyanın təhlükəsizlik mühitində üzməsi vacib xətt kimi görünür. Bu, eyni zamanda Böyük Britaniyanın da prioritetləri ilə üst-üstə düşür. Buna görə də Asiyanın daha geniş üfüqlərə açılan pəncərəsi olan Qazaxıstanla perspektiv strateji gedişləri müəyyənləşdirmək Ankara ilə Londonun ortaq maraqları kimi də təqdim edilə bilər. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin prezident olaraq Türkiyəyə ilk səfəri gələcək istiqamətlərin müəyyənləşməsi baxımından önəmlidir. Tərəflər arasında 15 sənəd imzalanıb.

İmzalanan sənədlər Türkiyə-Qazaxıstan əlaqələrini mövcud strateji tərəfdaşlıq xəttindən strateji müttəfiqlik səviyyəsinə qaldırmaq üçün münbit zəmin yaradır.

İki ölkə arasında ticarət həcminin 10 milyard dollara çatdırılması və qarşılıqlı investisiyalarda rəqəmlərin artırılması qarşıya məqsəd qoyulub. Bu da strateji müdafiə mexanizmlərinin iqtisadi əsaslarının gücləndirilməsinə hesablanan addımdır. İmzalanan sənədlərlə Bakı-Tbilisi-Qars dəmir yolu ilə daşımaların həcmi 4 dəfə artacaq. Eyni zamanda Aktau limanının ticarət imkanları genişləndiriləcək. Ümumilikdə isə yeni dünya nizamında təkbaşına güclü müdafiə yaratmaq getdikcə çətinləşir. Buna görə də kollektiv qalxan formalaşdırılır. Bir neçə türk dövlətini kollektiv maraqlarla eyni platformada birləşdirən Türk Dövlətləri Təşkilatı beynəlxalq sistemdə güclü müdafiə elementləri ilə özünə yer tutmağa can atır. Bu, Rusiya ilə Qərb arasındakı təhlükəli rəqabət meydanına çevrilməmək, tərəflərin Mərkəzi Asiya istiqamətinə yönələn maraqlarına qarşı instinktiv reaksiyalardır. Ona görə də Moskva və Qərbin Avrasiya gündəmini təyin etmək səyləri Türkiyə faktoru ilə üzləşəcək və Ankaranın səyləri TDT maraqları ilə koordinasiya ediləcək. Bu üzləşmədə regionda artan təsirlərin perspektiv ölçülərini indidən müəyyən etmək çətindir".

> Tokayevin Ankara səfəri Rusiya-Ukrayna müharibəsinin nəticələrinin Asiya regionuna keçidi ehtimallarına hazırlıqdır

*Analitik vurğulayıb ki, təhlükəsizlik üçün Qərbin dəstəklədiyi Transxəzər layihəsinin reallaşması vacibdir:* "Amma bu, daha çox enerji sektoruna töhfədir və buna Rusiyanın reaksiyaları fərqli istiqamətlərdə inkişaf edə bilər. Bakı-Tbilisi-Qars dəmir yolu ilə daşımaların da 4 dəfə artırılması nəzərdə tutulur. Çin amilinə gəlincə, Pekin iqtisadi ekspansiyalarla bütün rəqibləri regionda sıxışdırmaq siyasətini davam etdirəcək və bəzən Rusiya, bəzən isə Türkiyə ilə sövdələşmələrə gedəcək. Tokayevin Ankara səfəri Rusiya-Ukrayna müharibəsinin nəticələrinin Asiya regionuna keçidi ehtimallarına hazırlıqdır. Regional oyunçu Türkiyə bütün senarilərə hazırlıq üçün səylərini intensivləşdirəcək".

# Əfv müraciətlərinin siyahısı genişlənir

## Novella Cəfəroğlu: "Biz də Komissiyaya 39 nəfərlik siyahı təqdim etmişik"





**Əfv Məsələləri Komissiyasının növbəti iclasının keçirilmə vaxtı müəyyən olunub.**

Növbəti iclasın mayın 14-də baş tutması nəzərdə tutulur.

Qeyd edək ki, Əfv Məsələləri Komissiyasının bundan əvvəlki üç toplantısında əfvlə bağlı 300-dən artıq müraciətə baxılıb.

**D.Əliyeva adına Qadın Hüquqlarının Müdafiəsi Cəmiyyətinin sədri, hüquq müdafiəçisi Novella Cəfəroğlu "Şərq"ə açıqlamasında bildirib ki, onların siyahısı artıq Əfv Məsələləri Komissiyasına göndərilib:**

"Kriteriyalarımıza uyğun, siyasi məhbuslar, cəbhəçilər, redaktorlar, blogerlər, jurnalistlər, hüquq müdafiəçiləri və ömürlük azadlıqdan məhrum edilənlərdən bir neçə nəfəri siyahıya əlavə etdik. Komissiyaya verdiyimiz ümumi say 39-dur. Onların əfv edilməsi arzuolunandır".

Sücayət Mehti

# Ermənistanda hakimiyyət dəyişikliyi gözlənilmir

## Paşinyan Qərbdən Azərbaycanla normallaşma prosesini aparmaq üçün dəstək alır



**"Ermənistanda parlament müxalifətinin etirazları hakimiyyətin dəyişməsi ilə nəticələnməyəcək".**

**Bunu "Şərq"ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. Analitik bildirib ki, etirazçı dəstə erməni diasporunun və xalqın dəstəyini almır, birbaşa Kremlin göstərişi ilə Nikol Paşinyana təzyiq etmək üçün həyata keçirilir:**

"Etirazların arxasında Koçaryan-Sarkisyan cütlüyü dayanır və əsas hədəf mövcud iqtidarı devirməkdir. Vaşinqtonun Paşinyana dəstək verməsi "Qarabağ klanı"nın silahlı yolla hakimiyyəti devirməsinin qarşısını alır. Kremlin Ermənistanı revanşistlərin əli ilə qarışdırmaq və sülhü pozmaq cəhdləri səmərəsiz olacaq. Artıq Qarabağ separatçıları ilə Paşinyan arasında ciddi münaqişə yaşanır. Xankəndidə silahlı şəxslərin ortaya çıxması məhz revanşistlərin vəziyyəti gərginləşdirməsindən xəbər verir. Bununla Paşinyana mesaj verir, sülhə getməmək ultimatumu verirlər".

Ekspertə görə, silahlı şəxslər İrəvan küçələrində də peyda ola bilərlər: "Revanşistlərin cəhdlərinin uğursuz olacağı şübhəsizdir. Ermənistan hakimiyyəti konkret olaraq Azərbaycanla danışıqlarda separatçıların təkliflərini nəzərə almır və prosesi beynəlxalq hüquqa uyğun aparmağa çalışır. Paşinyan ABŞ başda olmaqla, Qərbdən Azərbaycanla normallaşma prosesini aparmaq üçün dəstək alır. Onun Avropaya səfəri də erməni diasporundan dəstək istəmək idi. Çünki Azərbaycanla əməkdaşlığın alternativi yoxdur. Revanşistlər sülhə mane olarsa, Azərbaycan anti-terror əməliyyatlarına start verə bilər. Prezident İlham Əliyevin prinsipial mövqeyi və bu xüsusda açıqlamaları göstərir ki, Ermənistan üçün güzəşt limiti bitib".

İsmayıl Qocayev

# NATO-nun baş katibi koronavirusa yoluxub

## Stoltenberq xəstəliyi yüngül formada keçirir



**NATO-nun baş katibi Yens Stoltenberq koronavirusa yoluxub.**

Trend bildirir ki, bu barədə NATO-nun nümayəndəsi Oana Lungesku özünün "Twitter" səhifəsində yazıb.

"NATO-nun baş katibi Yens Stoltenberqin COVID-19 testinin nəticəsi müsbət çıxıb", - deyə O.Lungesku bildirib.

Onun sözlərinə görə, Y.Stoltenberq xəstəliyi yüngül formada keçirir və məsafədən işini davam etdirəcək.

NATO-nun nümayəndəsi əlavə edib ki, Y.Stoltenberq koronavirusa qarşı tam peyvənd olunub.

# Zelenski NATO sammitində iştirak edə bilər



**Ukrayna Prezidenti Vladimir Zelenski iyun ayında Madriddə keçiriləcək NATO sammitində iştirak edə bilər.**

APA TASS-a istinadən xəbər verir ki, bu barədə NATO baş katibinin müavini Mirça Coane deyib. O, NATO-ya üzv ölkələrin dövlət və hökumət başçılarının görüşünə Ukrayna liderinin qatılacağını istisna etməyib.

*Qeyd edək ki, İspaniyanın paytaxtı Madrid şəhərində keçiriləcək sammit iyunun 28-dən 30-dək davam edəcək.*



# Şuşa Realnı Məktəbinin bərpası mühüm təşəbbüsdür

## Ölkə rəhbərinin bu istiqamətdə verdiyi tapşırıqlar və tövsiyələr təqdirəlayiqdir

İsmayıl Qocayev

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşa Realnı Məktəbində həyata keçiriləcək təmir-bərpa işləri ilə də tanış olublar. Təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma görüləcək işlər barədə məlumat verib. Qeyd olunub ki, fəaliyyətə 1881-ci il sentyabrın 20-də başlayan Şuşa Realnı Məktəbi həm tədrisi, təhsil ənənələri, həm də yetişdirdiyi görkəmli şəxsiyyətlərlə bütün Cənubi Qafqazda seçilən təhsil ocaqlarından biri idi.**

Əvvəlcə 6 sinifdən ibarət olan və 159 şagirdi qəbul edən məktəbin Haşım bəy Vəzirov, Yusuf bəy Məlikhaqnəzərov kimi pedaqoqları, Əbdürrəhman bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Xudadat bəy Məlik-Aslanov, Cavad bəy Məlik-Yeqanov, Əhməd bəy Ağaoğlu, Xan Şuşinski kimi parlaq yetirmələri olub. Xalqın maariflənməsi, elmə yiyələnməsi işində müstəsna xidmətləri olan Şuşa Realnı Məktəbinin binasında sonradan bir sıra digər təhsil müəssisələri fəaliyyət göstərib. Şuşa şəhəri 1992-ci ilin mayında işğal edildikdən sonra bir çox tarixi yerlərlə bərabər bu məktəb də erməni vandalları tərəfindən yandırılaraq xarabazara çevrilib. Prezident və birinci xanım Şuşadakı inzibati binada və Şirin su hamamındakı bərpa işlərinə baxıblar. Prezidentin köməkçisi Anar Ələkbərov məlumat verib ki, tarixi Şirin su hamamında bərpa işləri Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Milli memarlıq ənənələrini özündə əks etdirən hamamın birmərtəbəli binası plan kompozisiyasına görə düzbucaqlı formadadır. Hamam ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısındadır və tarixi görkəmi qorunub saxlanılmaqla bərpa ediləcək. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri qədim mədəniyyət və memarlıq abidələri ilə zəngindir. Qədim Şuşanın 17 məhəlləsinin hər birində hamam, məscid və bulaq olub. Şəhərin Mərdinli məhəlləsində yerləşən Şirin su hamamı 1880-ci ildə inşa edilib. Vaxtilə şəhərin digər hamamlarında ərazilərdəki şor quyu sularından istifadə olunub. Bu hamam isə Xan qızı Xurşidbanu Natəvanın Şuşaya çəkdirdiyi içməli şirin su ilə təchiz edilib. Məhz buna görə də hamam "Şirin su" hamamı adlandırılıb. 1986-cı ildə aparılan ölçü işlərindən sonra memar Ədalət Məmmədov tərəfindən hazırlanan layihə üzrə abidədə əsaslı bərpa-təmir işləri görülüb. Şirin su hamamı 1992-ci il mayın 8-də Şuşa şəhəri ermənilər tərəfindən işğal edilənədək öz təyinatı üzrə fəaliyyət göstərib. İşğal dövründə digər bütün abidələrimiz kimi bu qədim hamam da ermənilər tərəfindən dağıdılıb.



**Tarixçi-alim Faiq Ələkbərli "Şərq"ə bildirib ki, Qarabağda tarixi tikililərin bərpa olunması son dərəcə vacibdir:** "Şuşa Realnı Məktəbinin və Şirin su hamamının əslinə uyğun təmir olunması çox mühüm təşəbbüsdür. Biz bunu təqdir edirik və alqışlayırıq. Ölkə rəhbərinin bu istiqamətdə verdiyi tapşırıqlar və tövsiyələr də təqdirəlayiqdir. Şuşada mühüm əhəmiyyət kəsb edən tarixi tikililərin, ələlxüsus Realnı Məktəbin bərpası tarixi ənənələrin bərpası deməkdir. Görülən işlər Şuşa şəhərinə olan diqqət və marağı daha da artıracaq. Şübhə yox ki, tarixi abidələrin bərpa-təmir işləri sadəcə Şuşa ilə yekunlaşmayacaq. Ağdamda və Qarabağın digər bölgələrində də əsaslı təmirə və əslinə qayıdışa ehtiyacı olan qədim tarixi tikililərimiz kifayət qədərdir. Şuşa gələn il türk dünyasının mədəniyyət paytaxtı elan edilib. Görünür, gələn ilə kimi Qarabağda xeyli ciddi işlər görüləcək".

# Türkiyəyə F-16-lar satılacaq

## Ağ Ev Konqresdən ilə yeni silah razılaşmasını təsdiqləməyi istəyib



**Ağ Ev Konqresdə Türkiyəyə 40 yeni F-16 qırıcısı satmaq üçün ayrıca təklifə dəstək səviyyəsini ölçmək məqsədilə razılaşmadan istifadə edə bilər.**

"Report"un xəbərinə görə, bunu ABŞ-ın "The Wall Street Journal"ı yazıb.

Adı açıqlanmayan amerikalı rəsmilərə istinadən hazırlanan məqalədə qeyd olunub ki, Türkiyənin rəsmi Kiyev və Moskva arasında danışıqlara ev sahibliyi etməsi, Rusiyanın döyüş gəmilərinin Qara dənizə girməsinə mane olması ilə ABŞ-la daha mütəmadi təmaslar qurulub və münasibətlərdə daha möhkəm addımlar atılıb.

Nəşrin məlumatına görə, razılaşma Türkiyəyə F-16-lar üçün raket, radar və elektron avadanlıqların göndərilməsini ehtiva edir.

Rəsmi şəxslər "AIM-9 Sidewinder" və "AIM-120 Amraam" raketlərinin, həmçinin radar və digər avadanlıqların satışının Türkiyəyə 400 milyon dollardan çox başa gələcəyini bildirib.

Məqalədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın da fikirlərinə yer verilib. O, martın sonunda F-16-ların modernləşdirilməsi və yeni alışlarla bağlı ABŞ-la müsbət yanaşmaların olduğunu bildirib. Dövlət başçısının sözlərinə görə, proses belə davam edərsə, Türkiyə alacağı F-16-ları və modernləşdirmə işlərini tez bir zamanda başa çatdırmaq imkanı əldə edəcək.

R.T.Ərdoğan həmçinin vurğulayıb ki, ABŞ Prezidenti Cozef Bayden ona bu məsələyə müsbət yanaşmasını Konqresə təqdim edəcəyini, S-400-lərin Türkiyənin mülkü olduğunu və bu məsələ ilə bağlı müzakirələrin hazırda Türkiyə üçün qapalı olduğunu bildirib.

Qeyd olunub ki, ABŞ və Türkiyə rəsmiləri Ankaranın 2017-ci ildə Rusiyadan S-400 hava hücumundan müdafiə sistemlərini almasından sonra münasibətlərin bərpası üçün F-16 razılaşmasının vacibliyini vurğulayıblar. Lakin Konqresin hər iki palatası Ankaranın Rusiya ilə əlaqələrinə və Türkiyədə insan haqları ilə bağlı narahatlıqlara etiraz edərək satışın əleyhinədir. Bununla belə, Bayden administrasiyasının tələbindən sonra Konqresin cavabı hələ də maraq doğurur.

ABŞ Dövlət Departamentinin sözçüsü bildirib ki, Dövlət Departamenti təklif olunan müdafiə transferləri Konqresə rəsmi şəkildə çatdırılana qədər onları açıq şəkildə şərh etməyəcək. Türkiyə Milli Müdafiə Nazirliyi isə sorğuya cavab verməyib.

Ankaranın ötən il müraciətindən sonra Ağ Evin bu ilin sonunda Türkiyənin mövcud təyyarələrinin modernləşdirilməsi və yeni F-16 eskadrilyasının satışı ilə bağlı Konqresə ayrıca sorğu göndərəcəyi gözlənilir. Türkiyə və Amerika rəsmiləri F-16-nın satışının iki müttəfiq arasında illərlə davam edən gərginliyi azaltmağa və Türkiyənin Rusiya və Çinə yaxınlaşmasının qarşısını ala biləcəyini iddia ediblər.



# Azərbaycan bütün senarilərə hazırdır

## Sülh ya dinc, ya da güc yolu ilə reallaşdırılacaq

**2022-ci ilin fevral ayında Azərbaycan növbəti addım kimi, 5 baza prinsipini Ermənistana təqdim edib. Brüssel görüşündə Ermənistan Azərbaycanın verdiyi 5 baza prinsipinin məqbul olması ilə bağlı fikir səsləndirib. Lakin sonradan rəsmi İrəvanın Azərbaycanın 5 təklifinə qarşı 6 təklifi barədə xəbərlər yayılıb.**

Xarici işlər naziri Ceyhun Bayramov bu barədə açıqlama verib. Nazirin sözlərinə görə, maraqlısı bundan ibarətdir ki, hər kəs Ermənistanın qəbul etdiyi sənədi görüb:

"Sənədə baxarkən görünür, təkliflər adlandırıla bilməz. Həmin sənəd təqdim olunan zaman da Ermənistan tərəfinin sənədi Azərbaycanın təkliflərinə reaksiya formasında idi. Mən o 6 bənddən ibarət reaksiyanın bir neçəsini sadalaya bilərəm və siz də qənaətə gələ bilərsiniz ki, bunu nə qədər təklif adlandırmaq mümkündür".

**Mövzu ilə bağlı "Şərq"ə danışan siyasi şərhçi Aqşin Kərimovun fikirlərinə görə, Azərbaycanın formalaşdırdığı sülh gündəliyində anklavlar məsələsi də ortaya qoyulub və bu, Bakının qazandığı müstəsna üstünlüklərin göstəricisidir:**

"İndi Ermənistan hakimiyyəti qarşısında erməni xalqını sülhə hazırlamasının növbəti mərhələsi çağırış kimi dayanır.

Hərçənd, Ermənistandakı radikal qüvvələr belə istəmir və qurulan oyunda erməni xalqının duyğularını istismar edərək hakimiyyətə gəlməyə çalışırlar. Onlar iqtidar kürsüsünə yiyələnsə də, sülhün bərqərar olması prosesinin qarşısına keçə bilməyəcək. Sülh ya dinc, ya da güc yolu ilə reallaşacaq.

Ermənistanda marginal qrupların hakimiyyətə gəlmək ehtimalı azdır, lakin Azərbaycan bütün senarilərə hazırdır.

Paşinyan iqtidara "əlvida" desə də, yeni hakimiyyət ölkəmizin formalaşdırdığı sülh gündəliyi ilə barışacaq. Ən pis halda onlar görüntü naminə bəzi hərbi təxribatlar törədə bilərlər, sonra isə hər şeyi Paşinyanın boynuna ataraq vəziyyəti qəbul edəcəklər.

Senari üzərindən ona görə danışırıq ki, Ermənistanda siyasi vəziyyət necə olursa-olsun, Azərbaycan istədiklərini alacaq. Bakının kəşfiyyat-texniki imkanları, siyasi-diplomatik həmlələri, hərbi qüdrəti genişdir və İrəvan üzərində qalıcı hal alıb".

**Aygün Tahir**

# ABŞ kəşfiyyatı xəbərdarlıq edib

## Putin uzunmüddətli müharibəyə hazırlaşır

**ABŞ kəşfiyyatı Rusiya Prezidenti Vladimir Putinin "əsl niyyətlərini" təsvir edərək, onun Ukraynada uzunmüddətli müharibəyə hazırlaşdığını və hətta şərqdəki qələbənin belə potensial olaraq münaqişəyə son qoymayacağı barədə xəbərdarlıq edib.**

"Şərq" qəzeti Türkiyənin "milliyet.com.tr" saytına istinadən xəbər verir ki, ABŞ-ın xəbərdarlığı Rusiyanın torpaq almağa çalışdığı şərqdə şiddətli döyüşlərin davam etdiyi bir vaxtda edilib. Ukraynanın paytaxtı Kiyevi ələ keçirmək cəhdlərinə müqavimət göstərən Moskva öz qoşunlarını yenidən Donbass bölgəsini ələ keçirməyə yönəldib. Lakin buna baxmayaraq, ABŞ kəşfiyyatı Rusiya qüvvələrinin çıxılmaz vəziyyətdə qaldığını bildirib. Son münaqişələrdə Ukrayna Xarkov vilayətinin şimal-şərqində yerləşən dörd yaşayış məntəqəsini geri aldığını iddia edib. Prezident Vladimir Zelenski deyib ki, Rusiya qüvvələri müharibə başlayandan bəri bombardman edilən Xarkovdan tədricən sıxışdırılıb çıxarılıb, lakin sevinmək üçün hələ tezdir.



### "Ümumi səfərbərlik elanı hər şeyi dəyişə bilər"

### "Vəziyyət dəyişəcək"

Bununla belə, Putin müharibə davam etdikcə "daha sərt üsullara" əl ata bilər. İddia olunur ki, Putin nüvə silahından yalnız Rusiya üçün "ekzistensial təhlükə" hiss etdiyi halda istifadə edəcək. ABŞ-ın Müdafiə Kəşfiyyat İdarəsinin direktoru Skot Berrier ruslar və ukraynalıların "dalanda" olduqlarını vurğulayıb. Bununla belə, Berrier bəyan edib ki, Moskva "rəsmi olaraq müharibə elan edərsə və ümumi hərbi səfərbərlik elan edərsə" vəziyyət dəyişə bilər.

### Putinin əsl niyyəti nədir?

Milli Kəşfiyyatın direktoru Avril Haines ABŞ Senatının komitə iclasında deyib ki, Putin hələ də Donbassdan kənarda hədəflərə çatmaq niyyətindədir. Lakin onun ambisiyaları ilə Rusiyanın mövcud hərbi imkanları arasında uyğunsuzluq var. Haynes yaxın iki ayda Ukraynada əhəmiyyətli münaqişələrin olacağını proqnozlaşdırıb. Çünki Rusiya hərbi əməliyyatlarını canlandırmağa çalışır. Rusiyanın Donbassı ələ keçirsə belə, müharibəni bitirməyəcəyini və Kiyevdəki uğursuz gedişdən sonra diqqəti Donbassa yönəltməyin yalnız "müvəqqəti dəyişiklik" olduğunu ifadə edən Haynes, "Putin Ukraynada və bu müharibədə uzun bir müharibəyə hazırlaşır" deyib.

### "Çin Ukraynada baş verənləri diqqətlə izləyir"

Komitə iclasında Çinin Tayvanla bağlı ata biləcəyi mümkün addımlar da müzakirə olunub. Çinin Ukraynadakı müharibədə baş verənləri diqqətlə izlədiyini bildirən Amerika kəşfiyyat rəhbərləri Rusiya-Ukrayna müharibəsinin Çinin Tayvanla bağlı planlarını indidən sürətləndirəcəyini gözləmədiklərini bildiriblər. Haynes qeyd edib ki, Çin ABŞ və Avropanın Ukraynaya dəstək üçün necə bir araya gəldiyini görəndə təəccüblənib və bu, Pekinin Tayvana qarşı mümkün hərbi əməliyyatlara dair hesablamalarına təsir edə bilər. Onun sözlərinə görə, Çin hərbi əməliyyata əl atmadan Tayvanı almağa üstünlük verəcək.

**İsmayıl**



"Ola bilsin, payız ayları immun sisteminin zəifləməsi, bir sıra tənəffüs yolu və respirator xəstəliklərin baş qaldırdığı dövrdə COVİD-19 da fəallaşsın"

# Pandemiyanın bitdiyini elan etmək olar

## Yay aylarında yoluxmanın artması ehtimalı 0 faizdir

**Dünyanın 50-dən çox ölkəsində koronavirusa yoluxma hallarının sayı artır və bu artım "omikron" ştammının alt növlərindən qaynaqlanır.**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adanom Qebreyesusun sözlərinə görə, bu artım virusun gözlənilməzliyindən xəbər verir.

İctimai səhiyyə eksperti, Vaksinlər və İmmunlaşdırma üzrə Qlobal Alyansın (GAVI) müşaviri və BMT baş katibinin keçmiş müşaviri, professor Georgi Pxakadze isə deyib ki, bölgədə - Gürcüstan və Azərbaycanda, qardaş dövlətlərdə koronavirusa yoluxma hallarının növbəti dalğası çox tezliklə, iyun-iyul aylarında gözləniləndir: "İndi fırtınadan əvvəlki sükut hökm sürür, mən indiki vəziyyəti belə adlandırardım. Biz pandemiya ilə mübarizə aparırıq və bu, qlobal məsələdir. Dünyada baş verən hadisələri, statistikanı izləmək lazımdır. Bu, hörümçək toruna bənzəyir - bir hissədə tərpəniş baş verirsə, sonra bütün şəbəkəyə yayılır.

Ekspert Cənubi Qafqaz regionunda yoluxmanın növbəti dalğasının yayda yayılmasını proqnozlaşdırıb: "Baxın, hamı yorulub, hamı təmiz hava istəyir. İndi yazdır, tezliklə yay, tətil, çimərlik mövsümü başlayır. Ancaq koronavirus da pusqudadır. Gürcüstan və Azərbaycanda kifayət qədər peyvənd olunmamış insanlar var. Bundan əlavə, bir çoxları Çin peyvəndi ilə vaksinasiya olunub, hansı ki, xüsusilə də "Delta" və "Omikron" variantlarına qarşı çox təsirli olduğu sübut edilməyib".



**İnfeksionist-hepatoloq Mərdan Əliyev isə Azərbaycanda pandemiyanın bitdiyini deyib. Onun sözlərinə görə, artıq insanlarda koronavirusa qarşı müqavimət formalaşıb:** "Onların bir qismi virusa bir neçə dəfə yoluxaraq təbii immunitet qazanıb, digər qismi isə onlarla təmasda olmaqla yüngül keçirib və immunitet formalaşdırıb. Odur ki, heç bir artım gözlənilmir. Əvvəllər karantin rejimi ilə bağlı müəyyən yumşalmalar olan kimi azalmaqda olan yoluxma sayı sürətlə artır. Amma indi xüsusi karantin rejiminin ləğv edilməsindən bir ay vaxt keçib və hər hansı bir artım müşahidə edilmir. Əksinə, az-az, tək-tək yoluxmalar olur. Bir sıra ölkələrdə COVİD 19 pandemiyası hələ də davam edə bilər, deməli, həmin ölkələrdə kollektiv immunitet formalaşmayıb. Onlarda sadəcə olaraq qorunma tədbirləri hesabına müəyyən azalmalar müşahidə edilirdi. Bizdə isə yoluxma sayı təbii şəkildə baş verdi".

Həkimin sözlərinə görə, yay aylarında yoluxmanın artması ehtimalı 0 faizdir: "Ola bilsin, payız ayları immun sisteminin zəifləməsi, bir sıra tənəffüs yolu və respirator xəstəliklərin baş qaldırdığı dövrdə COVİD-19 da fəallaşsın. Amma bu da kütləvi xarakter almayacaq".

**Şəymən**



qədim və tarixi görkəmini qaytarsın. Bütün bu proseslər isə ölkə başçısı cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın nəzarəti və diqqəti ilə həyata keçirilməkdədir. Xüsusi vurğulamaq lazımdır ki, bu işlərdə Heydər Əliyev Fondunun müstəsna xidmətləri var. Fondun maddi-mənəvi tarixi abidələrin bərpası işində önəmli təcrübəyə malik olması Qarabağdakı quruculuq işlərinə də önəmli töhfələr verməkdədir".

**Parlament üzvü vurğulayıb ki, Ermənistan tərəfi 30 illik işğal dövründə Azərbaycan ərazilərini viran qoyub, tarixi-dini abidələr dağıdılıb, bütün infrastruktur məhv edilib.** Həmçinin, flora və faunaya, ekologiyamıza da böyük ziyan vurulub. O baxımdan işğaldan azad olunmuş ərazilərimizdə yeni binaların tikilməsi və yaşıllığın, meşə massivinin salınması da çox vacibdir: "Dövlət başçısı İlham Əliyev və Birinci-vitse prezident Mehriban xanım Əliyeva təməlqoyma mərasimlərində iştirak edərək, salınan parklarda ilk ağacları məhz özləri əkərək quruculuq və bərpa prosesinə töhfə verirlər. Bir məqamı qeyd edim ki, ulu öndərin ən çox sevdiyi ağac xan çinar idi. Füzulidə də xan çinarları əkildi. Qarabağ Dirçəliş Fondu tərəfindən də işğaldan azad edilmiş ərazilərdə mühüm işlər görülməkdədir. Fond yaradıldığı gündən etibarən bölgənin dirçəldilməsi üçün investisiyaların cəlb edilməsi, vəsaitlərin toplanması və bütün səylərin birləşdirilməsi istiqamətində ciddi addımlar atıb. İşğaldan azad edilmiş şəhərlərdə parkların salınması da məhz Qarabağ Dirçəliş Fondu tərəfindən həyata keçirilir".

# Qarabağ cənnətə çevriləcək

## Bütün işlər Prezidentin və birinci xanım Mehriban Əliyevanın nəzarəti və diqqəti ilə həyata keçirilir

**"10 may tarixində Prezident cənab İlham Əliyev və Birinci-vitse prezident Mehriban xanım Əliyevanın Füzuli və Şuşa şəhərlərinə növbəti səfəri çox maraqlı məqamlardan xəbər verir". Bu sözləri "Şərq"ə açıqlamasında millət vəkili Naqif Həmzəyev deyib. Deputat bildirib ki, 10 may hər bir Azərbaycan vətəndaşı üçün çox önəmli gündür:**

"Mayın 10-u ulu öndər Heydər Əliyevin doğulduğu gündür. Ümummilli liderin anadan olmasının 99-cu ildönümündə məhz Şuşada dövlət başçısı İlham Əliyevin xüsusi mesajlar səsləndirməsi rəmzi məna daşıyır. Həmçinin, Şuşanın və digər torpaqlarımızın işğaldan azad edilməsi ulu öndərin siyasətinin davamının təntənəsi kimi dəyərləndirilməlidir. Ümummilli lider əminliklə inanırdı ki, torpaqlarımız işğaldan azad olunacaq. Onun əsasını qoyduğu siyasət cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Nəticədə biz torpaqlarımızı işğaldan azad etdik. Dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğala son qoyulan gündən bu yana mütəmadi olaraq həmin ərazilərə səfərlər edirlər. Şəhərlərin baş planlarının təsdiqlənməsi, quruculuq-bərpa işlərinin aparılması və prosesin nəzarətdə saxlanması Qarabağın qurulmasına çox böyük önəm verildiyini göstərir. Biz işğaldan azad olunmuş ərazilərimizi ən qısa zamanda cənnətməkana çevirmək istəyirik. Dövlət başçısı İlham Əliyevin Füzuli və Şuşaya növbəti səfərlərində də bu məqsəd və mətləbə diqqət çəkilməlidir. Şuşa şəhəri Azərbaycanın və türk dünyasının mədəniyyət paytaxtıdır. O baxımdan Şuşa şəhərində hər bir daşın yerinin dəyişdirilməsi belə xüsusi nəzarətlə həyata keçirilir. Tarixi abidələrin bərpasına önəm verilir və çalışılır ki, şəhər əvvəlki

**İsmayıl Qocayev**

---

**Mayın 11-i iş günümüz üzücü xəbərlə başladı; Məzahir Süleymanzadə vəfat edib. Jurnalistlər üçün Məzahir Süleymanzadənin əlavə təqdimatına heç vaxt ehtiyac duyulmayıb. Məzahir Süleymanzadə Azərbaycan mətbuat tarixinə adını "Səhər"lə yazdıran şəxsdir.**

Belə də qalacaq. Azərbaycan xalqı "Səhər"i heç vaxt unutmayacaq. Çünki qanlı yanvarda əl-əl gəzən, "Azadlıq" meydanından o zaman hələ "Kirov" parkı adlanan, köhnə adıyla Çəmbərəkənd qəbiristanlığı kimi tanınan, Bakını erməni daşnaklarından xilas edərkən şəhid olmuş qəhrəman oğulların uyuduğu, lakin bolşevik işğalının üstünü örtdüyü, amma hafizələrdən qazıya bilmədiyi məzarların olduğu məkana axışan insan selini ilk dəfə "Səhər" qəzeti xalqa çatdırmışdı. Bu qəzet o qanlı günlərdə xalqın haqq səsiydi və bu səsi Məzahir Süleymanzadənin rəhbərlik etdiyi mətbu orqanı, onun əməkdaşları ölkəyə yayırdı. 20 Yanvar şəhidlərinin siyahısını da ilk dəfə "Səhər" dərc etmişdi.





# Məzahir Süleymanzadə haqqın dərgahına qovuşdu

## Azərbaycan xalqı "Səhər"i heç vaxt unutmayacaq



Məzahir Süleymanzadə Mərdəkan qəbiristanlığında dəfn olunub

Məzahir Süleymanzadənin tərcümeyihalı zəngindir, mənəviyyatı kimi;

1952-ci il dekabrın 22-də Bakıda anadan olub. 1970-ci ildə Şamaxı şəhərindəki 1 saylı orta məktəbi bitirib. Ötən əsrin 70-ci illərinin əvvəllərində Şamaxı Tarix-Diyarşünaslıq Muzeyinə rəhbərlik edib, Zaqafqaziya Hərbi Dairəsinin Tbilisidəki Ali Hərbi Müxbirlər məktəbini, Lvov Ali Hərbi-Siyasi Məktəbinin jurnalistika fakültəsini bitirib. 1974-1979-cu illərdə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alıb. Müxtəlif illərdə "Leninskoe znamya", "Krasnaya zvezda", "İdman" - "Sport" qəzetlərində, "Sovetski voin" jurnalında çalışıb. "Kommunist" qəzetində baş müxbir, məsul katib və redaktor müavini vəzifələrini tutub. 1989-cu ildə müstəqil Azərbaycan mətbuatının ilklərindən sayılan "Səhər" qəzetini təsis edib. M.Süleymanzadə həmçinin çoxsaylı kitablar müəllifidir. 1984-1994-cü illərdə "Qızıl qələm", "Həsən bəy Zərdabi", "Mirzə Cəlil", həmçinin "Araz" Ali mükafatına layiq görülüb, 1989-cu ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olunub. Məzahir Süleymanzadə Fəxri bədən tərbiyəsi və idman xadimi olub. 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb. M.Süleymanzadə futbol sahəsində də fəaliyyət göstərib. O, "Neftçi" və AFFA-da mətbuat katibi, Bakı Futbol Federasiyasında prezident və vitse-prezident vəzifələrində çalışıb.

Medianın İnkişafı Agentliyi Məzahir Süleymanzadənin vəfatıyla bağlı başsağlığı verib: "Tanınmış jurnalist, "Səhər" qəzetinin təsisçisi və baş redaktoru olmuş Məzahir Süleymanzadə vəfat edib. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Məzahir Süleymanzadənin vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!".

Mərhumun qardaşı, beynəlxalq dərəcəli hakim Tahir Süleymanovun KİV-ə verdiyi məlumata görə, M.Süleymanzadə şəkərli diabetdən dünyasını dəyişib. Mərhum jurnalist dünən Mərdəkan qəbiristanlığında torpağa tapşırılıb.

Məzahir müəllim sosial şəbəkədə diqqətçəkən paylaşımlar edirdi. Xüsusən də mərhum həyat yoldaşı Gülnarə xanım və nəvələriylə bağlı. Gülnarə xanımla bağlı paylaşımlarında həyat yoldaşının itkisini heç cür qəbul etmədiyi aydın hiss olunurdu. Həyat yoldaşının 60 illik yubileyini sağlığında qeyd edə bilmədiklərinə üzülmüşdü. Gülnarə xanımın məzarı üstə düzdüyü qərənfillərə belə bir şeir həsr etmişdi:

**Qəbrin üstə 40 qərənfil əkdirdim,**
**Gözlərimdən onlara su tökdürdüm.**
**40 gün keçdi... qərənfillər boy atdı,**
**Çox uzandı, boyu boyuma çatdı.**
**Nə bilim məndən sonra olacaq, olmayacaq,**
**Qərənfillər qəflətən saralıb solmayacaq**
**Fikrim sənin yanında, xəyalım göy üzündə.**
**Üzə biləcəyəmmi qərənfil dənizində?..**

Dünən, Məzahir müəllimin ruhu sevimli həyat yoldaşının ruhuna qovuşub, yəqin. Məzahir müəllimin məzarı da dünən qərənfillərə büründü. İnanırıq ki, solmayacaq qərənfillər, Məzahir müəllimin layiqli övladları, əziz nəvələri nə babanın, nə də nənənin güllərini solmağa qoyacaq. Bir də Məzahir müəllim nəvəsi Mədinəylə bağlı bir paylaşım etmişdi: "Mədinə deyir ki, baba, bir az döz, özüm sənin həkimin olacam". İnanırıq ki, Mədinə babasına söz verdiyi kimi həkim olacaq, ağlı, bacarığı ilə neçə-neçə insana şəfa verəcək, babasını sağalda bilməsə də. Yadıma düşdü ki, Məzahir Süleymanzadə mayın 9-u - Faşizm üzərində qələbə günü II Dünya müharibəsində həlak olmuş atasıyla bağlı paylaşım etmişdi. "Ruhun şad olsun, atam", yazmışdı. Mayın 11-i isə özü vəfat etdi. Bu nə idi?.. Ruhların qovuşacağının şüuraltı hissiyyatı?.. Bəlkə də Allah rəhmət eləsin. Ruhun şad olsun, ustad!

Mərhum Mərdəkan qəbiristanlığında doğmalarının yanında torpağa tapşırılıb. Dəfn mərasimində Mətbuat Şurasının sədri Əflatun Amaşov, media nümayəndələri və mərhumun yaxınları iştirak edib.

Çıxış edənlər M.Süleymanzadənin media və idman sahəsindəki xidmətlərindən bəhs edərək, onun vəfatının böyük itki adlandırıblar.

**Məlahət Rzayeva**

**P.S.** "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı və qəzetin kollektivi ustad jurnalist Məzahir Süleymanzadənin vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

# Böyük Qayıdış reallaşır

## Prezidentin Şuşaya və Füzuliyə səfəri Qarabağda quruculuq işlərini sürətləndirir

**İsmayıl Qocayev**



"Azad edilmiş bütün ərazilərdə genişmiqyaslı abadlıq-quruculuq və bərpa işləri aparılır"

**Mayın 10-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində səfərdə olublar. Dövlət başçısı və birinci xanıma Şuşadakı inzibati binada aparılan son tamamlama və binanın ətrafında həyata keçirilən abadlıq işləri barədə məlumat verilib.**

Prezident və Birinci-vitse prezident Mehriban xanım Əliyeva Heydər Əliyev Fondu tərəfindən Şirin su hamamında, tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın evində, Mehmandarovlar malikanə kompleksində aparılacaq bərpa işləri ilə tanış olublar. Ölkə rəhbərliyi "Shusha Boutique Hotel"də və Şuşa Realnı Məktəbində həyata keçiriləcək təmir-bərpa işləri ilə də tanış olublar. Sonra Prezident İlham Əliyev Şuşa şəhərində "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib. Mayın 10-da, yəni ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü günü Şuşaya səfər edən dövlət başçısı vurğulayıb ki, Heydər Əliyev Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərib. Ölkə rəhbəri qeyd edib ki, ulu öndərin, bu günü görmədən həyatdan getmiş yüz minlərlə insanın, şəhidlərimizin ruhu şaddır: "Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümüdür. Bu gün Füzuli və Şuşa şəhərlərinə səfər etmişəm. Keçən il mayın 10-da Naxçıvanda idim. Bu il mayın 10-da isə Qarabağdayam, işğaldan azad edilmiş Qarabağda. Xalqımız üçün ən çətin anlarda xalqın yanında olmuşdur, Azərbaycan xalqını böyük bəlalardan, faciələrdən xilas etmişdir. Heydər Əliyev Azərbaycan dövlətçiliyinin, Azərbaycan dövlətinin banisidir, onun qurucusudur. O, öz həyatını xalqa həsr etmişdir və onun ən böyük arzusu Qarabağı yenidən azad görmək, ərazi bütövlüyümüzü bərpa etmək idi. O, öz fəaliyyəti ilə dövlət quruculuğu, ordu quruculuğu sahələrində gördüyü işlər nəticəsində dövlətin əsasları yaradıldı və ölkəmiz inkişaf yoluna qədəm qoydu. Əfsuslar olsun ki, atam bu günü görə bilmədi. Onun kimi yüz minlərlə azərbaycanlı bu günü görmədən həyatdan getdilər. Biz - onların davamçıları onların işini tamamladıq, atamın vəsiyyəti yerinə yetirildi. Bu gün atamın, bu günü görmədən həyatdan getmiş yüz minlərlə insanın, şəhidlərimizin ruhu şaddır. Biz onların ruhunu şad eləmişik".

Prezident bəyan edib ki, biz doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq: "Bu gün Qarabağ dirçəlir. Bu gün Füzulidə və Şuşada bir neçə tədbirdə iştirak etmişəm. Bütün bölgələrdə quruculuq-bərpa işləri sürətlə gedir, azad edilmiş bütün ərazilərdə genişmiqyaslı abadlıq-quruculuq və bərpa işləri aparılır. Əslində, şəhərlər, kəndlər yenidən qurulur. Çünki işğal dövründə düşmən bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdir, bütün tarixi abidələrimizi dağıtmışdır, Qarabağın, bölgənin, Qafqazın incisi olan Şuşa kimi şəhəri bərbad hala qoymuşdur. Biz - bu torpaqların sahibləri artıq qayıtmışıq və bu torpaq, bu səma bunu görür. Görür ki, hər gün inkişafla bağlı daha bir addım atılır. Hər gün daş üstə bir daş qoyulur. Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bərpa edirik. Bu gün mayın 10-da mən mütləq burada olmalı idim. Ulu Öndərin xatirəsinə öz ehtiramımı və Azərbaycan xalqının ehtiramını buradan ifadə etməli, bir daha deməli idim ki, biz bu torpaqlara, doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

**Millət vəkili, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Hikmət Babaoğlu "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev və Birinci-vitse prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş torpaqlarımıza hər səfəri ayrıca bir hadisəyə çevrilir.** Deputatın sözlərinə görə, edilən səfərlər illərlə həsrətində olduğumuz, xəyallarımızda qurduğumuz Böyük Qayıdışı reallaşdırır: "May ayının 10-da Füzuli rayonunda bir sıra mühüm obyektlərin təməli qoyuldu. Bunların sırasında 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanasının və ildə 800 tələbə qəbul edə biləcək Peşə Liseyinin təməlinin qoyulması azad edilmiş ərazilərimizdə məskunlaşmanın və məşğulluğun təmin edilməsi istiqamətində xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda Füzuli şəhərində yeni yaradılacaq mərkəzi park kompleksinin ərazisinin seçilməsi və orada Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci-vitse prezident Mehriban Əliyevanın ağac əkməsi təkcə yeni parkın təməlinin qoyulması deyil. Həm də illərlə erməni vandallarının ekologiyamıza vurduqları zərərin dünyaya nümayiş etdirilməsidir. Azərbaycanın bu barbarlığa cavab verməsi hadisəsidir".

**Parlament üzvü qeyd edib ki, səfər çərçivəsində Şuşada tarixi abidələrimizin bərpa edilməsi, bu istiqamətdə Heydər Əliyev Fondu tərəfindən görülən işlər mədəniyyət paytaxtımızın tarixi simasının bərpa olunması baxımından mühüm əhəmiyyət kəsb edir:** "Azərbaycanın ziyalı mühitinə görkəmli şəxsiyyətlər bəxş etmiş Şuşa Realnı Məktəbində həyata keçiriləcək təmir-bərpa işləri, məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə yaşadığı evin restavrasiya edilməsi Heydər Əliyev Fondunun maddi-mədəni irsimizin bərpa edilərək yenidən xalqımıza qazandırılması istiqamətində həyata keçirilən böyük işlərin davamıdır. Heç şübhəsiz, Prezident İlham Əliyevin Şuşadan məhz may ayının 10-da, Ulu Öndər Heydər Əliyevin doğum günündə Azəraycan xalqına müraciət etməsi dövlətçilik tariximiz və milli yaddaşımızın yenilənməsi baxımından xüsusi məna kəsb edirdi. Çünki Heydər Əliyevin ən böyük arzusu torpaqlarımızın işğaldan azad edilməsi idi. Torpaqlarımızın işğaldan azad edilməsi isə milli dövlətçiliyimizin xilas olunması idi. Məhz Prezident İlham Əliyev xalqımızın ümummilli arzusunu reallığa çevirən Müzəffər Ali Baş Komandan kimi, dövlətçiliyimizin gələcəyini təmin edən böyük siyasətçi kimi xalqımıza müraciət etdi. Keçdiyimiz bu zəfər yolunu Heydər Əliyev ideya və arzularının təntənəsi kimi qiymətləndirdi. Onu Azərbaycan dövlətçiliyinin banisi adlandırdı. Bu mənzərə qürurverici idi və hər bir azərbaycanlıda fəxarət hissi yaradırdı".

---

# Şuşa türk birliyinin simvoludur

## Bu şəhərdə Türkiyə konsulluğunun yaradılması önəmlidir



**Şuşada Türkiyə Konsulluğunun yaradılması ilə bağlı Azərbaycan və Türkiyə Xarici işlər nazirlikləri arasında danışıqlar gedir.** Bu barədə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı deyib. Səfir bildirib ki, proses daim diqqətdədir. Bağçı onu da vurğulayıb ki, Türkiyə və Azərbaycan bölgədə baş verən hadisələrlə bağlı mütəmadi şəkildə danışıqlar aparır.

**Şuşada türk konsulluğunun açılmasının önəmi ilə bağlı "Şərq"ə danışan Türkiyədə yaşayan tanınmış azərbaycanlı alim, Ankara Universitetinin professoru Toğrul İsmayıl deyib ki, 44 günlük savaşdan sonra Cənubi Qafqazda çox ciddi geopolitik dəyişikliklər oldu.** Professora görə, önəmli məqamlardan biri də Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin müttəfiqlik mərhələsinə çıxarılması idi: "İki qardaş ölkə arasında Şuşa Bəyannaməsinin yeri əvəzsizdir. Azərbaycan və Türkiyə birliyi ilə bağlı dünyaya mesajlar verilməkdədir. Bu mesajlardan ən əhəmiyyətlisi məhz Şuşada Türkiyə konsulluğunun yaradılmasıdır. Konsulluğun yaradılması çox mühümdür. İlk növbədə Şuşanın Azərbaycanın ayrılmaz tərkib hissəsi və türk birliyinin simvoludur. Ən önəmlisi isə Qarabağdan Rusiya və Ermənistana verilmiş mesajdır ki, hər ikisi Şuşadan gözlərini və əllərini çəksinlər. Qardaşlıq münasibətlərinin maksimum dərinləşməsi qürurvericidir. Əlbəttə, görüləcək çox iş var və proses asan deyil. Əsas məsələ işğaldan azad edilmiş ərazilərin bərpası və əhalinin bölgəyə yerləşdirilməsidir. Zamanla konsulluq məsələsi də həllini tapacaq. Əsas odur ki, ortada real iradə və ortaq qərarlar var".

**İsmayıl Qocayev**

# Biz yaradıcı, qurucu xalqıq

## Torpağın əsl sahibləri yaxın vaxtlarda bu ərazilərdə məskunlaşacaq



**Azərbaycan Prezidenti İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva mayın 10-da Füzuli rayonu və Şuşa şəhərinə səfər ediblər.**

Onlar Şuşadakı Şirin su hamamında, Realnı Məktəbində, Mehmandarovların malikanə kompleksində aparılan bərpa işlərinin hazırkı mərhələsinə nəzər salıblar.

Dövlət başçısı Şuşa şəhərindən müraciətində Qarabağın dirçəldiyini söyləyib:

”Biz bu torpaqlara, doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq”.

Azərbaycan liderinin sözlərinə görə, bütün bölgələrdə quruculuq-bərpa işləri sürətlə gedir, azad edilmiş bütün ərazilərdə genişmiqyaslı abadlıq-quruculuq və bərpa işləri aparılır: ”Əslində, şəhərlər, kəndlər yenidən qurulur. Çünki işğal dövründə düşmən bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdir, bütün tarixi abidələrimizi dağıtmışdır, Qarabağın, bölgənin, Qafqazın incisi olan Şuşa kimi şəhəri bərbad hala qoymuşdur. Biz - bu torpaqların sahibləri artıq qayıtmışıq və bu torpaq, bu səma bunu görür. Görür ki, hər gün inkişafla bağlı daha bir addım atılır. Hər gün daş üstə bir daş qoyulur. Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bərpa edirik”.

Qeyd edək ki, Şuşada Mehmandarovların malikanə kompleksində də bərpa işlərini Heydər Əliyev Fondu aparır.

**Azad edilmiş ərazilərdə görülən işləri ”Şərq”ə dəyərləndirən millət vəkili Elman Məmmədovun qənaətincə, 44 günlük Vətən müharibəsi qələbə ilə yekunlaşdıqdan sonra Prezident qəti şəkildə mövqeyini açıqlayır:** ”Bizim qələbəmiz əbədidir, torpaqların sahibiyik. Düşmən torpaqlarımızı işğal etmişdi, indi biz ərazilərimizi azadlığına qovuşdurmuşuq. Ərazi bütövlüyümüzün təmin edilməsi, dövlətçiliyimizin qorunması üçün nə lazımdırsa, edirik, edəcəyik və etməliyik.

Həmişə müəyyən təhlükələrlə üzləşə bilərik. Ona görə də ayıqsayıq olmalı, ehtiyatı əldən verməməliyik. Dövlətçiliyimiz günü-gündən möhkəmlənir, iqtisadiyyatımız güclənir, ordumuz qüvvətlənir. Azərbaycan ordusu hər an döyüşə hazır vəziyyətdədir.

Düşmənin bugünkü hərəkətləri doğru yolda olduğumuzu göstərir. Gələcəkdə böyük uğurlar, qələbələr bizi gözləyir. Prezident Şuşanın işğaldan azad olunması və dövlətimizin qurucusu, Ulu Öndərin doğum günündə bölgələrə səfərə yollanır. Dünyaya sülh istədiyimizin mesajını ötürür. Yaradıcı, qurucu xalqıq. 30 il ərzində düşmənin viran qoyduğu ərazilərdə surətli tikinti, abadlıq işləri aparırıq. Torpağın əsl sahibləri yaxın vaxtlarda bu ərazilərdə məskunlaşacaqlar.

Hər səfərdə də nə qədər bünövrələr qoyulur, açılışlar edilir, işlərə baxış keçirilir. Hamısı xalqımızın gələcəyi üçündür”.

**Aygün Tahir**

# Putinin ən çox danışdığı Makrondur

## İkinci sırada Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan qərarlaşıb

**”Rusiyanın ”Kommersant” qəzetinin araşdırmasına görə, prezident Vladimir Putin il ərzində xarici həmkarlarıyla canlı ünsiyyətdən çox telefon danışıqlarına üstünlük verib. Bu, təbiidir. Rusiyanın Ukraynaya qarşı apardığı işğalçı müharibənin fonunda Putinlə görüşmək məqsədilə Kremlə getmək istəyən liderlərin sayı çox deyil.**

Eləcə də Putini ölkəsinə dəvət etmək istəyənlərin sayı xeyli azalıb. Kreml sahibi Ermənistanın Baş naziri Nikol Paşinyanla 17, Azərbaycan Prezidenti İlham Əliyevlə 9 dəfə telefonla danışıb. Müqayisə üçün deyək ki, Putin yaxın dostu Aleksandr Lukaşenko ilə Paşinyandan daha az danışıb.



Kreml rəhbəri ikinci prezidentliyi müddətində amerikalı həmkarlarıyla telefon əlaqəsini 4 dəfə azaldıb. Bunun də səbəbi Putinin aqressiv xarici və təhlükəsizlik siyasətidir”.

**Bu barədə ”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Ekspert vurğulayıb ki, Putin Amerikanın əvəzinə Yaxın Şərq ölkələrinin liderləri ilə telefon danışıqlarının sayını da artırıb. Buna baxmayaraq, Putinlə telefonla danışan həmkarları arasında Fransa Prezidenti Emmanuel Makron liderliyi ələ keçirib:** ”Putin fevral və mart aylarında Makronla 13 dəfə telefonla danışıb. İkinci sırada Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan qərarlaşıb. Makron və Ərdoğanla Putinin telefon danışıqlarının əsas hissəsi Ukraynadakı müharibəyə, Ankaranın vasitəçiliyinə həsr olunub. Vladimir Putin Cənubi Qafqazı da unutmayıb. Kreml Bu, Ermənistanın düşdüyü ağır vəziyyətlə bağlıdır. Azərbaycan İkinci Qarabağ müharibəsində qələbə qazandıqdan sonra İrəvanın Moskvadan asılılığı artıb. Ekspertin sözlərinə görə, hərbi texnikasının əsas hissəsini itirən Ermənistan yenə Rusiyadan silah və hərbi texnika dilənir. Kreml bunun əvəzinə Paşinyanı daha çox ayağına bağlamaq istəyir. Bu alınmadıqda isə Ermənistandakı ”Qarabağ klanını” və Qarabağdakı separatçıları Paşinyan əleyhinə istifadə edir. Vladimir Putin ötən il cəmi 3 xarici səfər reallaşdırıb. O, Cenevrədə ABŞ Prezidenti Co Baydenlə danışıqlar aparıb. Hindistana və Çinə səfər edib. Putin fevral ayında Çində qış olimpiadasının açılışında iştirak edib”.

**E.Şahinoğluna görə, Kreml sahibinin Hindistana səfərinin isə iki məqsədi olub:** ”Putinin bu səfərdən birinci məqsədi Pekinlə Dehli arasında balansı qorumaq, ikinci məqsədi Hindistanın baş naziri Narendra Modini inandırmaq idi ki, o, ABŞ-ın koalisiyalarında yer almasın. Hindistan bu səfərdən sonra Rusiyadan S-400 raketlərini alsa da, Çinin artan hərbi gücü qarşılığında ABŞ, Yaponiya və Avstraliya birgə dördlü koalisiyada yer alıb. Putin Ukraynaya qarşı müharibəyə başladıqdan sonra xarici ölkəyə səfər etməyib. O, telefona, videokonfranslara və uzun masaya üstünlük verib. Halbuki, Vladimir Putin prezidentliyinin birinci dörd ilində indi işğala məruz qoyduğu Ukraynaya - 11, Almaniyaya - 5, Fransaya - 4, Türkiyəyə - 4 səfər etmişdi. İndi bunların heç biri yoxdur. Çünki Kreml sahibi beynəlxalq aləmlə münasibətləri inkişaf etdirməyi və əməkdaşlığı qonşu dövlətin ərazilərini işğal etməyə qurban verdi”.

**İsmayıl**



# Revanşistlər Paşinyanı devirməyə cəhd edirlər

## Hakimiyyət radikal müxalifətin qarşısını almaq üçün dərhal sülh danışıqlarına başlamalıdır

**Ermənistanın keçmiş rəhbərləri və onlara yaxın çevrələr kütləvi aksiyalar təşkil etməklə ölkədə vəziyyəti gərginləşdirmək istəyirlər. Məqsəd Baş nazir Nikol Paşinyan iqtidarını devirmək və növbəti dəfə hakimiyyəti zəbt etmək planını gerçəkləşdirməkdir.**

Hazırda Ermənistanda baş verən hadisələr 1998-ci ildə kütləvi itaətsizlik təşkil etməklə Robert Koçaryanın Levon Ter-Petrosyanın istefasına nail olmaq və hakimiyyəti mənimsəmək senarisi ilə eynilik təşkil edir. Erməni xalqı 20 ildən artıq bir dövrdə Koçaryan-Sarkisyan cütlüyünün oğru, talançı və qaniçən rejiminin idarəçiliyinin acı nəticələrini indi də yaşayır. Lakin son parlament seçkiləri də göstərdi ki, hətta Azərbaycanla müharibədə ağır məğlubiyyət, çoxsaylı insan itkisinə baxmayaraq, erməni xalqı keçmiş cinayətkar və qaniçən rejimin rəhbərlərinə yenidən meydan vermək niyyətində deyil. Revanşist qüvvələrin bütün cəhdlərinə baxmayaraq, Paşinyan hakimiyyətinə təsirli təzyiq göstərmək üçün yüzminlərin küçələrə axmasına nail ola bilmədilər. Koçaryan-Sarkisyan cütlüyü çıxış yolunu Qarabağda vəziyyəti gərginləşdirməkdə görürlər. Yayılan məlumata görə, ”general” Samvel Karapetyan Xankəndinin mərkəzində 4 gəncə odlu silahdan atəş açıb. Karapetyan erməni millətçilərinin 1988-ci ildən Azərbaycan ərazilərində başladığı terror siyasətinin fəallarındandır. O, hərbi əməliyyatlarda fəallığı və qəddarlığı ilə seçilib. Hazırda 2008-ci il martın 1-də Ermənistanda 2008-ci il 19 fevralda keçirilmiş prezident seçkilərinin nəticələrinə etiraz edən dinc mitinqçilərin qətlə yetirilməsi ilə bağlı aparılan cinayət işinin nəticələrinə görə, S.Karapetyan aksiya iştirakçılarının güllələbaran edilməsinə birbaşa rəhbərlik edib. Onun Koçaryanın tərəfdarı olduğu və Paşinyan hakimiyyətinə qarşı fəallığı ilə seçildiyi deyilir. Lakin Koçaryan, Sarkisyan və Karapetyan kimilər unudurlar ki, hazırda 1990-cı ilin əvvəlləri deyil. Bu gün onların hansısa senarini gerçəkləşdirmək və yenidən hakimiyyəti mənimsəmək şansları sıfra bərabərdir. Güclü Azərbaycan ordusu ölkəmizin ərazisində ermənilərin vəziyyətin gərginləşdirilməsinə yönəlmiş istənilən cəhdinin qarşısını dərhal alacaq. Ermənistan növbəti dəfə revanşistlərin özbaşınalığının acı nəticələrini ödəmək məcburiyyətində qalacaq.

***"Azərbaycanla barışıq olmadan, ərazi bütövlüyümüz tanınmadan Ermənistanın dirçəlməsi, inkişafı qeyri-mümkündür"***

**Ermənistandakı hadisələri ”Şərq”ə təhlil edən politoloq Tofiq Abbasov deyib ki, ölkədə boşluq, vakuum dərinləşir. Analitik qeyd edib ki, bir ölkədə boşluq varsa, istənilən qüvvə prosesə müdaxilə imkanı əldə edir:** ”Ermənistanda indiki durumda istənilən dağıdıcı qüvvənin öz ambisiyalarını həyata keçirməsi üçün əlverişli şərait var. Bu baxımdan İrəvanda və digər şəhərlərdə baş vermiş hadisələrə görə bütün məsuliyyət hakimiyyətin, Paşinyan hökumətinin üzərindədir. İrəvan hakimiyyəti olayları dərk etməli, fəaliyyət planının icrasına başlamalıdır. Əgər hökumət məqsədli şəkildə gözləmə mövqeyi tutursa, dinamikanı təmin edə bilmirsə, mərkəzə qarşı çıxan radikal qüvvələrə, eyni zamanda kənar güclərə qapı aralamış olur. Ermənistandakı revanşist güclərin də ”hünəri”, ”bacarığı” ancaq dağıdıcılığa, pozuculuğa çatır. Ermənistan bir ölkə kimi suverenliyini təsdiqləyə bilməyib və irəli doğru deyil, geriyə addım atır. Yaxşı olar ki, Paşinyan hökuməti pozuculuq hərəkətlərinə nümayişkaranə şəkildə rəvac verməsin. Radikal qüvvələrin qarşısını alaraq Azərbaycanla sülh danışıqları prosesini başlatsınlar. Daha doğrusu, intensiv və dinamik hala gətirsinlər. Azərbaycanla barışıq olmadan, ərazi bütövlüyümüz tanınmadan Ermənistanın dirçəlməsi, inkişafı qeyri-mümkündür. Ölkədəki revanşist qüvvələr məhz bu tərəqqinin qarşısını almaq niyyətindədir. Azərbaycan və Türkiyə təmaslar çox kövrəkdir və bu məqam Ermənistan üçün yaxşı heç nə vəd etmir. Əfsuslar olsun ki, Ankara-İrəvan danışıqları da ləng gedir. Ermənistan bütün prosesləri yarımçıq saxlayır, irəliyə doğru addım atmır. Bunu fürsət bilən radikal müxalifət də Qərb ölkələrindən və Rusiyadan aldıqları dəstəklə ölkəni qarışdırmağa cəhd göstərirlər. Bu da erməni xalqının qaranlıq dərəyə yuvarlanması deməkdir”.

**İsmayıl Qocayev**

# Bağlı qapılar arxasında uşaqlar ağlayır

## Son vaxtlar azyaşlıların köməksiz vəziyyətdə qalmasına dair xəbərlər artıb





**Fövqəladə Hallar Nazirliyi azyaşlıların təhlükəsizliyi ilə bağlı əhaliyə müraciət edib. Müraciətdə qeyd edilir ki, FHN-in ”112” qaynar telefon xəttinə azyaşlıların mənzillərdə bağlı qapı arxasında köməksiz vəziyyətdə qalmasına dair mütəmadi məlumatlar daxil olur. Bütün hallarda Nazirliyin müvafiq qüvvələri tərəfindən həyata keçirilən operativ əməliyyatlar sayəsində köməksiz (təhlükəli) vəziyyətdə qalan azyaşlılar xilas olunaraq ailə üzvlərinə və ya yaxınlarına təhvil verilir.**

Bu kimi hadisələrlə bağlı aparılan təhlillər onu deməyə əsas verir ki, bəzən valideynlər ən sadə səbəblərdən (qonşuya baş çəkmək, həyətdəki mağazaya düşmək və s.) azyaşlıları evdə tək qoyur və nəticədə, bir sıra hallarda qapının açılması qeyri-mümkün olduğundan xilasedicilərin köməyinə ehtiyac yaranır. Qeyd olunanları, habelə mənzillərdə azyaşlıların həyatına təhlükə törədə biləcək elektrik və qaz cihazlarının, açıq eyvan və pəncərələrin, düşə biləcək ağır əşyaların, kimyəvi maddələrin, kəsici alətlərin və s. mövcudluğu nəzərə alınaraq, valideynlər uşaqlara qarşı diqqətli olmağa və onları heç bir halda tək buraxaraq mənzili tərk etməmək tövsiyə edilir.

***“İnsanlar arasında sosiallaşmanın, ünsiyyətin, mehribanlığın itməsi bədbəxt hadisələrin sayını da artırır”***

**Müraciətlə bağlı ”Şərq”ə fikirlərini bildirən təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev qeyd etdi ki, bu müraciət valideynlərə ünvanlanıb:**

- FHN-in müraciətində qeyd olunanlar ümumən cəmiyyət üçün xarakterik hallardır. Uşaqların mənzildə köməksiz qalması, FHN xilasedicilərinin köməyə gəlməsi xəbərlərini tez-tez eşidirik. Belə hallar, son illərdə təəssüf ki, intensiv xarakter alıb. Əsas səbəb də valideyn məsuliyyətsizliyidir. Valideynlər öz hərəkətlərinə əsas tapmağa çalışır, müxtəlif səbəblər göstərirlər. ”Uşağı tapşıracaq kimsə yoxdur”, ”işləyirəm, vaxtım azdı”, ”5 dəqiqəlik marketə getdim” və sair. Amma bəzən faciələr elə bu 5 dəqiqədə, hətta nəinki 5 dəqiqədə, 1 dəqiqənin içində, anidən baş verə bilir. Uşağın eyvandan, yaxud pəncərədən boylandığı zaman yıxılması, mənzildə hansısa əşyanın uşağın üzərinə aşması 1 dəqiqənin içində baş verə bilər. Yaxud kəsici alətlə, yaxud kibritlə, ”oynayıb”, özünə xəsarət yetirməsi üçün 1-2 dəqiqə yetərli olur. Bu cür faciələr baş verdikdə, valideynlər ömrü boyu mənəvi əzab içində yaşayır. Özlərini günahlandırmaqdan başqa əllərindən bir şey gəlmir, ömür boyu əzab çəkirlər. Bunlar baş verməsin, nə uşaqlar fəlakətlə üzləşsin, nə də valideynlər ömrü boyu tənəli qalsın deyə, məsuliyyət hissi əsas olmalıdır.

***“Valideynlərin məsuliyyət hissi olmalıdır ki, ömrü boyu peşmançılıq çəkməsin”***

**E.Nurəliyev qeyd etdi ki, azyaşlıları heç bir halda evdə tək qoymaq olmaz:**

- Mənzildə tək qalmaq uşaqda psixoloji sarsıntı yarada bilər. Uşaq hansısa yad səsdən qorxar, qarabasma olar. Uşaqlar çox zaman evə yad adamların daxil ola biləcəyindən, onlara xəsarət yetirə biləcəyindən qorxurlar. Mənzildə tək qalan uşaqda bu qorxu hissi daha da artır. Görür ki, anası, atası yanında deyil, özünü tək, köməksiz hiss edir. Bu cür hallar uşaqlarda erkən yaşda psixoloji travmaların əmələ gəlməsinə, uşağın xəstələnməsinə səbəb olur. Təhlükə baxımından da uşağın evdə tək, nəzarətsiz qalması düzgün deyil.

**E.Nurəliyev qonşular arasındakı bağların zəif olmasına toxundu:**

- Əvvəllər valideyn uşağı həyətdə oynamağa göndərirdi və arxayın olurdu ki, uşaq digər uşaqların əhatəsindədir, qonşular da nəzarət edir. Ana təcili harasa getməli olanda uşağı yaxın qonşuya həvalə edirdi. Artıq çoxdandır bu ənənələr itib. Nəinki çoxmənzilli binalarda, artıq həyət evlərində də əksəriyyət dəmir qapı qoydurub, qapıları da kip bağlayır. Evlər arasında hündür, qalın hasar çəkirlər ki, kimsə bir-birini görməsin. Eyni blokda yaşayan sakinlər bir-birini tanımır. Kimsə kimsənin qapısını döymür. Sosiallaşma sıfra enib. Bu səbəbdən də valideynin vacib bir işi olanda məcbur qalıb uşağı mənzildə tənha qoyub gedir, qapını da arxadan bağlayır. Uşaqlar da çox zaman qapı kilidi ilə oynayır, bəlkə də içəri tərəfdən açmağa çalışırlar, bu zaman da açar kilidə düşür. Valideyn evə qayıdanda qapını aça bilmir, FHN-ə zəng edir. Uşağın mənzildə tək olduğundan bəzən qonşuların heç xəbəri də olmur. Ya gərək mənzildən uşağın ağlamaq səsi gəlsin, ya bir səs olsun ki, mənzildə kiminsə bağlı qalması aydınlaşsın. Bir-birindən xəbərsiz qonşular bunu hardan biləcək? İnsanlar arasında sosiallaşmanın, ünsiyyətin, mehribanlığın itməsi bədbəxt hadisələrin sayını da artırır.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması;**



# Gələcəyimizi qorumalıyıq

## Ailə-məişət münaqişələrində ən çox əziyyət çəkən uşaqlar olur

**Mingəçevirdə qızına işgəncə verən ata həbs edilib. Mayın 10-u saat 12 radələrində Mingəçevir şəhərində yaşayan 2003-cü il təvəllüdlü A.M-nın atası tərəfindən qanunsuz azadlıqdan məhrum edilməsi barədə şəhər prokurorluğuna məlumat daxil olub.**

Araşdırmalarla 1978-ci il təvəllüdlü N.M-nın psixi xəstəlikdən əziyyət çəkən, kənar şəxslərin qulluğuna ehtiyacı olan qızını fiziki zor tətbiq edib döyməklə evinin həyətyanı sahəsindəki dəmir dirəyə bağlamasına, həmçinin evin zirzəmisində saxlayıb aclığa məruz qoyub əzab verməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Mingəçevir şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 133.2.6 (işgəncə verməklə əzab vermə) və 145.2.5-ci (qanunsuz azadlıqdan məhrum etmə) maddələri ilə cinayət işi başlanıb. N.M şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. Hazırda iş üzrə istintaq tədbirləri davam edir.

Bu hadisə Azərbaycanda məişət, ailə münaqişələri zəminində baş verən onlarla cinayətdən yalnızca biridir. Əslində məişət zorakılığı Azərbaycanda geniş yayılmış gender problemidir. Demək olar əksər ailələrdə məişət zorakılığı özünü müəyyən formalarda büruzə verir. Kimdəsə bu fiziki, cinsi şiddət, kimdəsə də psixoloji təzyiq və təcrid edilmə kimi formalarda müşahidə olunur.

Ailə münaqişələrində hər zaman qurban roluna uşaqlar düşürlər. Fiziki zərbə almasalar belə mütləq şəkildə mənəvi, psixoloji travmalar yaşayırlar. Yəni bir vaxtlar aksioma kimi qəbul edilən "Uşaqlar üçün ən təhlükəsiz yer onların doğulub boya-başa çatdıqları evləri və ailələridir" fikrini artıq faktlar şübhə altına qoyur. Ailədə normal mühit hökm sürəndə, valideyn-övlad münasibətləri qaydasında olanda, cəmiyyətə layiqli övlad da yetişir: "Bizim dəyərlərə görə belə qəbul edilir ki, uşağın çayını, yeməyini verdinsə, iş bitdi. Amma uşağın inkişafı, sağlam psixoloji mühitdə böyüməsi, gələcəyi mühüm amildir.

**Sosioloq Əhməd Qəşəmoğlu "Şərq"ə açıqlamasında deyir ki, uşağa**

uşaqlar üçün namünasib bir yerdir. Gərgin ailə, ata və ana bir-biri ilə dalaşanda və ya şiddət olduqda, bu, uşağa da təsir edir və beləliklə uşağa qarşı da təzyiq, şiddət artır. Bu, əksinə də ola bilər ki, uşaqların özünün formalaşmasına pis təsir edir və bu uşaqlar küçədə başqasından şiddət görürlər və yaxud valideynlər elə bir davranışa malik olurlar ki, uşaqları başqa uşaqlara zərər verirlər, şiddət göstərirlər. Ona görə də bu cür ailədaxili münaqişələrin artması halında uşaqların şiddət görməsi də təbiidir. Biz bunun qarşısını almalıyıq, çünki valideynin problemi uşaqların problemi deyil, bu,

**qarşı bu cür şiddətin artması gözləniləndir haldır. Çünki Azərbaycan ailəsi heç vaxt indiki qədər gərginlik içində olmayıb. Əgər bizdə 100 nikaha qarşı 30-dan artıq boşanma düşürsə, bu o deməkdir ki, ailə daxilində şiddət var:** "Yəni ancaq maddi vəziyyəti pis ailələrdə boşanma olmur. Deməli, belə ailələr xalqın gələcəyinin problemidir. Əgər ailələrdə belə gərginlik varsa, uşaqlar belə gərginlik içində böyüyürlərsə, onlara qarşı şiddət artırsa, axı bu xalqın gələcəyinə də güclü mənfi təsir edir. Bu məsələlər barəsində güclü tədbirlər görülməlidir ki, ən azından bu hallar azalsın".

*"Evdə bir problem olanda ata və ya ana əsəbini uşağın üzərinə tökür. Ümumiyyətlə, uşağa şiddət göstərən insanlar özləri şiddət görmüş travmalı insanlardır"*

**Psixoloq Vüsalə Əmiraslanova isə "Şərq"ə deyib ki, evlilikdən əvvəl cütlüklərin psixi sağlamlıq vəziyyəti nəzərdən keçirilməlidir. Psixi durumu yerində olmayan insanların psixologiyası ailə problemlərinə tab gətirə bilmir. Yaşanan ailə-məişət problemlərində isə əziyyət çəkən uşaqlar olur:** "Tez-tez rastlaşılan hallardan biri də budur ki, evdə bir problem olanda ata və ya ana əsəbini uşağın üzərinə tökür. Ümumiyyətlə, uşağa şiddət göstərən insanlar özləri şiddət görmüş travmalı insanlardır. Yuxarıda da qeyd etdiyim kimi nikah bağlayan gənclərin psixi sağlamlığı yoxlanılmadığı üçün ailədaxili münaqişələr, uşaqlara qarşı şiddət və işgəncə faktorları artır. Valideynlər sanki uğursuz ailə həyatının intiqamını uşaqdan almağa çalışır və bu kimi amillərin artması ailə institutunu tənəzzülə aparır. İstər qadın, istərsə də kişi ailə həyatı qurmamışdan öncə ailənin nə olduğunu, ata-ananın nə olduğunu öyrənməlidir. Gənclərimiz kor-koranə, ailənin, valideyn olmağın məsuliyyətini dərk etmədən ailə həyatı qurur. Arada qalanlar isə hər zaman uşaqlar olur".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Rus sülhməramlıları öhdəliyini yerinə yetirməlidir

## Əgər Qarabağdakı qeyri-qanuni qüvvələr ərazini tərk etməsə, Azərbaycan özü problemi həll etməli olacaq



**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarının fəaliyyətindən danışıb.**

Nazir bildirib ki, sülhməramlılar məsələsi Qarabağda Ermənistanın hərbi birləşmələrinin mövcudluğu, qanunsuz olaraq həmin ərazilərə səfərlərin edilməsi ilə bağlı gündəmə gəlir. C.Bayramov vurğulayıb ki, Qarabağda sülhməramlıların yerləşdirilməsi üçtərəfli bəyanata əsasən həyata keçirilib: "Onlar üzərlərinə düşən funksiyaları yerinə yetirirlər. Təbii ki, vaxtaşırı hansısa suallar yaranır, o suallar hələ də Qarabağda Ermənistanın hərbi birləşmələrinin mövcudluğu, qanunsuz olaraq həmin ərazilərə səfərlərin edilməsi ilə bağlıdır. Belə olan halda bunlar müzakirə mövzusu olur. Azərbaycan tərəfi məsələlərin bu müstəvidə həll edilməsinin tərəfdarıdır".

**XİN rəhbərinin açıqlamasını "Şərq"ə dəyərləndirən millət vəkili Ceyhun Məmmədov deyib ki, bugünədək Azərbaycan rəsmiləri dəfələrlə 10 noyabr üçtərəfli bəyanatının 4-cü bəndinin icra edilməməsinə diqqət çəkiblər. Deputat vurğulayıb ki, 4-cü bənddə Qarabağdakı qeyri-qanuni qüvvələrin bölgədən dərhal çıxarılmasından söhbət gedir:** "Ümumən, üçtərəfli sazişin reallaşması istiqamətində addımlar atılsa da, bizi narahat edən əsas məqam məhz qanunsuz silahlı qüvvələrlə bağlıdır. Torpaqlarımızda, xüsusən Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə qeyri-qanuni qüvvələrin qalması yolverilməzdir. Bu məsələ mütləq həllini tapmalıdır. Əslində problemin həll olunacağına tam əminik. Sadəcə burada zaman məsələsi var. Ona görə də bir az səbirli olmalıyıq. Əgər rus sülhməramlıları üzərinə düşəni etməzsə, Azərbaycan tərəfi hansı yolla olur-olsun qanunsuz qüvvələri öz torpaqlarından dəf edəcək. Hər halda sülhməramlı kontingent öz öhdəliyinə qeyd-şərtsiz əməl etməlidir".

İsmayıl Qocayev

# Rasim Balayevin namizədliyi təsdiqlənib

## Kinematoqrafçılar İttifaqının yeni sədrli seçiləcək



**Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) İdarə Heyətinin ümumi iclası keçirilib. Bu barədə "Report" a açıqlamasında yaradıcı təşkilatın katibi Əli İsa Cabbarov deyib.**

Onun sözlərinə görə, iclas zamanı Xalq yazıçısı Anar Rzayev mərhum Rüstəm İbrahimbəyovun yerinə Xalq artisti Rasim Balayevi namizəd kimi təqdim edib.

AKİ-nin katibi bildirib ki, iclas iştirakçıları Rasim Balayevin namizədliyini yekdilliklə təsdiqləyib.

Əli İsa Cabbarov həmçinin qeyd edib ki, may ayının son ongünlüyündə, 20-30 may tarixləri arasında Azərbaycan Kinematoqrafçılar İttifaqının Ümumi iclası keçiriləcək və səsvermə rəsmiləşdiriləcək: "Eyni zamanda iclasda Rüstəm İbrahimbəyovun xatirəsinin əbədiləşdirilməsi ilə bağlı tədbirlərin keçirilməsi müzakirə olunub. Təklif kimi Rüstəm İbrahimbəyovun məqalələrinin toplusu, sənədli film, Kino muzeyinin yaradılması təşəbbüsü göstərilir. Bu təşəbbüslərin müəyyən hissəsini Azərbaycan Kinematoqrafçılar İttifaqı özü maliyyələşdirəcək. Bəzilərinin reallaşdırılması ilə bağlı isə ölkə rəhbərliyinə müraciət olunacaq".

*Qeyd edək ki, R.Balayev 8 avqust 1948-ci ildə Ağsu rayonunda anadan olub. O, ilk dəfə Bakı kinostudiyasında "Ulduzlar sönmür" əsərində kiçik bir rolda çəkilib. Oynadığı "Nəsimi", "Babək" və "Dədə Qorqud" filmlərindəki rollarda tamaşaçıların sevgisini qazanıb. "Azərbaycanfilm" kinostudiyasının nəzdində fəaliyyət göstərən kinoaktyor teatr studiyasında da çalışıb. Böyük və çətin rollardan əlavə R.Balayev kiçik rollarda da oynayıb. "Bu şirin söz, azadlıq", "Sənin birinci saatın", "Xoşbəxtlik səhnəsi", "Mən hələ qayıdacağam", "Birisigün gecəyarısı" kimi filmlərdə o, epizodik rol oynayıb. "Özbəkfilm", "Mosfilm" və başqa studiyalarda filmlərə çəkilib.*



# Zəfər Muzeyi üçün toplanan eksponatların sayı açıqlanıb

**Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyi fondunun təşkili üçün ötən ilin yanvar ayından lazımi materialların toplanılması davam etdirilir.**

Bu barədə Trend-in sorğusuna cavab olaraq Mədəniyyət Nazirliyindən bildirilib.

Qeyd edilib ki, bütün eksponatlar Azərbaycan İstiqlal Muzeyində toplanılır.

Azərbaycan İstiqlal Muzeyinin direktoru Sədi Mirseyibli isə Trend-in suallarına cavab olaraq bildirib ki, 2021-ci ilin yanvar ayından bu günədək 7224 eksponat toplanılıb.

"Eksponatlar Vətən müharibəsində iştirak edən hərbçilərə, həkimlərə, şəhid olanlara, qazilərə məxsus şəxsi əşyalar, sənədlər, işğaldan azad edilən ərazilərimizə aid olan maddi-mədəniyyət nümunələri və xəritələrdən ibarətdir. Hətta bir neçə şəhid ailəsi həmin şəhidə məxsus bütün orden və medalları muzey üçün təqdim edib.

Muzeydəki eksponatlar yalnız 44 günlük Vətən Müharibəsinə həsr edilmir. Burada həmçinin Azərbaycan tarixinə məxsus xəritələr, kitablar, Birinci Qarabağ müharibəsində və Aprel döyüşlərində iştirak edənlərə, şəhid olanlarla, qazilərə məxsus əşyalar və məlumatlar yer alacaq. Eksponatların toplanılmasında vətəndaşlarla yanaşı dövlət qurumları da iştirak edir",- deyə o bildirib.

*Xatırladaq ki, 2020-ci il dekabrın 3-də Azərbaycan Prezident İlham Əliyev Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında Sərəncam imzalayıb.*

# Aytən Məmmədovanı "Nərmin işi"nə görə hədələyiblər?

## "Prokurorluq hər şeyi bilir, bəlkə də üstünə düşüblər"



**Azərbaycanda naməlum şəxs jurnalisti peşə fəaliyyətindən çəkindirmək məqsədilə təhdid mesajı ünvanlayıb.**

Mayın 8-də gecə jurnalist Aytən Məmmədova evə qayıdarkən Bakıda yaşadığı binanın liftində hücuma məruz qalıb. Arxasınca liftə girən tanımadığı şəxs jurnalistin boğazına bıçaq dirəyərək onu və azyaşlı qızını ölümlə hədələyib, "ağıllı olmağı" və adını çəkmədiyi məhkəmə prosesi haqda yazmamağı tələb edib.

Jurnalist Aytən Məmmədova ölkədə məhkəmə işlərinə aid məqalələr yazan jurnalistlərdəndir.

O, sosial şəbəkələrdə "Nərmin işi"nə dair tez-tez statuslar yazır.

Özü və yaxın ətrafı hücumun məhz bu işlə bağlı olduğuna əmindir. Qeyd edək ki, 2019-cu ilin noyabrında azyaşlı Nərmin itkin düşüb. 2020-ci ilin yanvarında isə uşağın yandırılmış meyiti yaşadığı kəndin ərazisində tapılıb. Şübhəli olaraq kənd sakini 1973-cü il təvəllüdlü İlkin Süleymanov həbs edilib.

A.Məmmədovanın başına gələn olay haqqında fikirlərini "Şərq"lə bölüşən İ.Süleymanovun qardaşı Adil Süleymanovun qənaətincə, artıq cinayətkarların narahatlığı üzə çıxır:

"Baş Prokurorun, bəzi qurumların qəbulunda olmuşuq. Görünən odur ki, hədsiz qorxurlar. Aytən xanıma da böyük ehtimal ona görə təzyiq göstərilib.

Bu işdən ötrü təzyiq ilk vaxtlardan var.

İnformasiyalar ictimailəşib. Respublika bu məsələni bilir. Yəqin, Aytən xanım lazımi qurumları məlumatlandırıb. Prokurorluq hər şeyi çox gözəl bilir. Bəlkə də üstünə düşüblər. Aytən xanımın məsələsi dəqiq aydın deyil. Lakin 99 faiz ehtimala görə, "Nərmin işi" ilə əlaqəlidir. İnşallah, ədalətli araşdırılar. Həqiqətən ciddi faktdır".

**Aygün Tahir**

# Çətin tərbiyə olunan uşaqları dinləmək lazımdır

## Bəlkə narkomaniya ilə bağlı vəziyyəti onlar daha yaxşı anladacaqlar





**Azərbaycanın şəhər və rayonlarında ötən il narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı ən çox fakt Sumqayıtda qeydə alınıb. Bunu Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə Üzrə Dövlət Komissiyasının hesabatında bildiriblər.**

Hesabata görə, 2021-ci il üzrə qanunsuz narkotik dövriyyəsi ilə bağlı Sumqayıt şəhəri üzrə 587 fakt, Lənkəran üzrə 459 fakt qeydə alınıb. Sumqayıtda ötən il 339 nəfər, Lənkəranda isə 443 nəfər cinayət məsuliyyətinə cəlb olunub.

Təəssüf ki, narkotikdən istifadə günümüzün bəlasına çevrilib. Nə qədər nəzarət olsa da, nəinki Sumqayıt şəhəri, bütün ölkə boyunda geniş vüsət alıb. Ən məyusedici tərəfi də odur ki, istifadənin yaşı cavanlaşır. Yeniyetmələrə, gənclərə psixiatrik maddələrin zərərlərindən bəhs edən tədbirlər, videoçarxlar təşkil olunsa da, yenə də acınacaqlı vəziyyətlə qarşı-qarşıya qalırıq. Gəncliyimiz məhvə doğru gedir. Cəmiyyətə yararlı şəxslərin yetişməsinə narkomaniyaya sürüklənmə halları əngəl olur. Təbii ki, insanın çevrəsi, ətrafı onun həyatında mühüm rol oynayır. Yetkinlik yaşından parlaq gələcək üçün dostların, yaşıdların düzgün seçilməsi vacib addımdır. Ona görə də bilgilənmə işləri daimi aparılmalı, narkomaniyanın təhlükəsi barədə gənclər məlumatlanmalıdır. Bu proseslərdə valideynlər də övladlarına dəstək verməlidir.

**Narkomaniya üzrə ekspert Emil Maqalov "Şərq"ə açıqlamasında bildirib ki, gəncləri maarifləndirmə işlərindən qismən razıyam:**

"Çünki təbliğatların aparılması ilə bağlı tədbirlərdə şagirdlərin, tələbələrin etibar etmədiyi adamlar iştirak edir. Məsələn, təşkil edilən tədbirlərdə rektor, prorektor, polis, məktəbin direktoru olur. Uşaqlar da onlara güvənmir və həmin şəxslərin yanında danışmır. Bundan əlavə, şablon filmlər nümayiş olunur. Təəssüf ki, tədbirlərə məhz çətin tərbiyə olunan uşaqları yox, yaxşı oxuyan gəncləri və kiminsə qohumlarını dəvət edirlər. Onlar da etimad göstərmədiyi insanları görəndə diskussiyaya qoşulmur, sual vermir, öz problemlərini söyləmirlər, qorxurlar. Məsələn, tədbirlərin birində yeniyetmələrə sual verməleri üçün müraciət etdim, heç birindən səs çıxmadı. Yekunda çölə çıxanda sual vermək istəməmələrinin səbəbini soruşanda, "narkoman olduğumu sanarlar deyə susdum" cavabını verdilər. Ona görə də uşaqlara şərait yaratmaq lazımdır".

**Ekspert diqqətə çatdırıb ki, məktəb psixoloqlarının əmək haqqısı çox azdır:**

"Onların məktəblərdə fəaliyyəti bərbad vəziyyətdədir. Məsələn, məktəbdənkənar çalışan psixoloqların bir seansı 50-100 manatdır, təhsil ocaqlarındakıların isə maaşı 200-300-dür. Bu məvacibə təbii ki, 1000 nəfərlə işləməzlər. Məsələn, Rusiyada, Gürcüstanda 100 nəfərə bir psixoloqdur və nəticəsi də var. Eyni zamanda məktəbdəki psixoloqların çoxu bu sahədə səriştəsizdir. Bundan başqa, idman komplekslərimiz asudə vaxtının təşkili üçün çox gözəl şansdır. Amma təəssüf ki, 80-90 faizinin fəaliyyəti dayanıb".

**Sücayət Mehti**

## Çörək aldı, içindən bolt çıxdı

Jurnalist sosial şəbəkədə məlumat yayıb




**"Çörəkçi" zavodunun istehsal etdiyi çörəyin içərisindən bolt çıxıb.**

Bu barədə jurnalist Amil Hacıyev sosial şəbəkədə məlumat verib. O, qeyd edib ki, "Al market" mağazasından aldığı çörəyin içindən tikinti materialına aid bolt çıxıb. Məsələ ilə bağlı Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) "Report"a bildirilib ki, bununla bağlı məlumat mediadan götürülərək araşdırılması üçün AQTA-da aidiyatı üzrə yönləndirilib.

*Qeyd olunub ki, araşdırmalar aparılacaq və araşdırmaların nəticələri ilə bağlı ətraflı məlumat veriləcək: "Vətəndaşlardan xahiş edirik ki, bu kimi hallarla rastlaşdıqda konkret faktları - məhsulun adı, istehsalçısı, satış obyekti, istehsal tarixi və s. göstərməklə Agentliyin 1003 "Çağrı Mərkəzi"nə zəng edib məlumat versinlər".*

**Elan**

Fərdi sahibkar Niftəliyeva Gülçin David qızına (VÖEN 9900001881) məxsus "Kembric" tədris mərkəzi kursunu yeni ünvana köçürərkən mühasibat və maliyyə sənədləri, digər zəruri sənədlər 01.03.2022-ci il tarixdən itdiyi üçün etibarsız sayılır. "Covid-19" xəstəliyinə tutulduğum üçün qeyd olunan sənədlərlə bağlı elanı vaxtında verə bilmədiyimə görə elanı 11.05.2022-ci il tarixdə vermişəm.

Salamov Sənan Sahid oğluna məxsus hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Nəsimi rayonu, A.Salamzadə küçəsi 1058 ünvanında yerləşən "Alyans NN" Mənzil Tikinti Kooperativi tərəfindən Ağazadə Nigar Adil qızına məxsus 110 C saylı binanın 2-ci girişinin 2-ci mərtəbəsində 1 otaqlı, ümumi sahəsi 46.4 kv.m olan 498 nömrəli mənzilin maliyyə arayışı və protokolu itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
-**Dizayn** (3-6ay)
-**Masaj** (3 ay)
-**Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

# Axandı Kürüm



**Fədai Qaraxanlı**

**Fədai Qaraxanlı 1967-ci ildə Tovuz rayonunun Qaraxanlı kəndində dünyaya göz açıb. BDU-nun jurnalistika fakültəsini bitirib. Bir çox mətbu orqanlarda çalışıb. Vətənsevər bir insan kimi Birinci Qarabağ savaşında da iştirak edib. O, təkcə publisistik yazıları ilə deyil, həm də şeirləri ilə tanınır. Fədai bəy növbəti dəfə şeirləri ilə oxucuların görüşünə gəlib.**

### Axandı Kürüm

Bir ucu Türkiyə, bir ucu Xəzər,
Ellərdən-ellərə axandı Kürüm.
Dumanlı dağlardan, zil qayalardan,
Yovşanlı çöllərə axandı Kürüm.

Qovaq meşələri sağda, solunda,
Palıdı, saqqızı, söydü yolunda.
Turacı, kəkliyi çoxdu kolunda,
Ormanlar içində axandı Kürüm.

Yaşıl çəmənliyi öz həvəsidi,
Yulğunlu adalar gur nəfəsidi.
Hər yanı quşların gözəl səsidi,
Qağayı qoynunda axandı Kürüm.

Qartallar qıy vurar, suları süzər,
Balıqçı quşlar da dərinə üzər.
Axşamlar dəstəsin nizama düzər,
Quşların ardınca axandı Kürüm.

O Qızıl Yulğundan, Torpaq Qaladan,
Bozun Qabağından, o At Çaladan,
Laləli çöllərdən, yaşıl taladan,
Çağlaya-çağlaya axandı Kürüm.

Yurdu başdan-başa dolanıb axır,
Qumlu sahillərə fidanlar taxır.
Hərdən qəzəbiylə sahilə çaxır,
Köklü ağaclarla axandı Kürüm.

Xəzəlli sahili payızda gözəl,
Qışda sonası da, qazı da gözəl.
İydənin iyində yazı da gözəl,
Sevənlər gözütək axandı Kürüm.

Yayda dəyə qurub sahildə qalsan,
Gecənin səsiylə yuxuya dalsan,
Səhərin sehrinə bir nəfəs alsan,
Sinənə meh kimi axandı Kürüm.

Bəyaz gecələrin yay işığında,
Tonqal işığında, çay işığında,
Gümüşə boyanmış Ay işığında,
Aynatək parlayıb axandı Kürüm.

### Əsrik dərəsi

Qoca Qafqazımın qucağındasan,
Qayalar yuvası Əsrik dərəsi.
Yamyaşıl meşələr ocağındasan,
Dağların havası Əsrik dərəsi.

Sən Oğuz yurdumun özəlliyisən,
Yayılan cökənin gözəl iyisən.
Qonur qayaların gözəlliyisən,
Qartallar oylağı Əsrik dərəsi.

Payızda sinəndə min naxış olur,
Qışda qayaların bir baxış olur.
Yayda yaylağına gur axış olur,
Yazda çiçəklənən Əsrik dərəsi.

Minillik mamırdan üzülüb gələn,
Məğrur qayalardan süzülüb gələn,
Bulaqdan-bulağa düzülüb gələn,
Ey Əsrik çayının, Əsrik dərəsi.

Bəzən duman olur dağların başı,
Bəzəkli qayalar bir üzük qaşı.
Buluddan nəm çəkir torpağı, daşı,
O buz bulaqların Əsrik dərəsi.

Azaflıdı bu dağların əzəli,
Böyük-Qışlaq yaylaqların gözəli.
Bu köylərin zarafatı məzəli,
Şöhrəti şanlıdı Əsrik dərəsi.

Dağlarda çiyələk, kəklikotu var,
Çaylarda gül açan yarpız otu var.
Qulançar, qantəpər, min cür otu var,
Ellərə məlhəmdi Əsrik dərəsi.

Sən Əsrik çayının şux nəfəsiylə,
Nəğməli bülbülün həzin səsiylə,
Cökəsi, fıstığı, öz vələsiylə,
Cənnətin özüsən Əsrik dərəsi.

Sərhədin obalar-obasındadı,
Sərvətin dağların yuvasındadı.
Sorağın Kəlbəcər ovasındadı,
Yurdumun yaddaşı Əsrik dərəsi.

### A Ceyrançölü

Uca Qafqazımın geniş sinəsi,
Minillik meydanı, a Ceyrançölü.
Qabaq-Qaş olubdu əzəl binəsi,
Obalar heyranı, a Ceyrançölü.

Kür çayı sinənə söykənib axır,
Könül sevgisiylə üzünə baxır.
Gecələr mehini düzünə yaxır,
Səhəri şehlənən, a Ceyrançölü.

Çəməndə çiçəklər bir xalı kimi,
Lalələr ismətli, həyalı kimi.
Yatmış gözəllərin xəyalı kimi,
Əlçatmaz ümmansan, a Ceyrançölü.

Xınalı kəkliklər xəlvətcə gəzər,
Tərlanlar göylərdə yerləri süzər.
Bildirçin səsiylə nəğmələr düzər,
Yovşanlar içində, a Ceyrançölü.

Qazan göldə qızıl qazın düzülüb,
Çoban dağda bulaqların süzülüb.
Sac dağından əl-ayağım üzülüb,
Həsrəti yandırar, a Ceyrançölü.

Eldar qoruğu da ad-san alıbdı,
Ayı dərəsindən adı qalıbdı.
Yaşılbaş sonalar yuva salıbdı,
Qamışlı göllərdə, a Ceyrançölü.

Yayda yovşanların saralıb gedir,
Sürülər yaylağa yır-yığış edir.
Payızda, qışında canlanma gedir,
Yazında çağlayan, a Ceyrançölü.

Təzək tüstüsündə yuxa yayılar,
Taxçaya düzülər o isti çaylar.
Yorğun çobanlar da içib ayılar,
Yazın yuxusundan, a Ceyrançölü.

Qaplan dərəsini sel bürüyəndə,
Qoyunlar mələşib, it hürüyəndə.
Sərdəndə quzunu qurd sürüyəndə,
Səslərin sədası, a Ceyrançölü.

Geniş çöllərini seyrə dalanda,
Yaşıl yovşanların iysin alanda.
İliq axşamları yada salanda,
Ürəyim atlanar, a Ceyrançölü.

Qıy vuran qartallar başın üstədir,
Çobanlar qartıda daşın üstədir.
Ötən çağlarımız yaşın üstədir,
Nəsillər ötürən, a Ceyrançölü.

# "Həyatı daha dolğun edirik!"

## *Azercell-dən sosial layihə müsabiqəsi*




**Cəmiyyətin sosial inkişafı üzrə hədəfinə sadiq qalan"Azercell Telekom" "Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" təməl strateji məqsədini əsas tutaraq sosial layihə müsabiqəsi elan edir. Müsabiqənin məqsədicəmiyyətin sosial fəallığını və inkişaf proseslərində daha aktiv iştirakını artırmaq, eləcə də,ayrı-ayrı sosial qrupların rifahının yüksəldilməsinə dəstək olmaqdır.**

Müsabiqəüç əsas istiqamət - təhsil, mədəniyyət və sağlamlıq sahəsinə dair layihələrin həyata keçirilməsini təşviq edir. Təqdim olunan layihələr aşağıdakı istiqamətlərdən birini əhatə etməlidir:

-Təhsilin müasir texnoloji həllər vasitəsilə təkmilləşdirilməsinə dəstək;

-Mədəniyyət və mədəni maarifçiliyin inkişafına müasir texnoloji həllər vasitəsilə dəstək;

-Ekoloji, fiziki və mənəvicəhətdən sağlam cəmiyyətin inkişafına rəqəmsal həllərin təsirilədəstək.

Qaliblərin seçimi zamanı rəqəmsal mühitin inkişafına, inklüzivliyə, həmçinintexnoloji həllər vasitəsilə həyat səviyyəsinin daha da yüksəldilməsinə dəstək olan layihələrə üstünlük veriləcək. Layihələrin daha geniş insan qruplarına fayda verə bilməsi, ideyanın dayanıqlı olaraq inkişaf etdirilməsi imkanları və davamlılığın təmin olunması kimi prinsiplərə dəxüsusi önəm veriləcək.

Nəzərinizə çatdırmaq istərdik ki, qiymətləndirmə prosesinin şəffaflığı və obyektivliyini təmin etmək məqsədilə layihələrAzercell şirkətində müvafiq sahədə çalışan peşəkarlar ilə yanaşı,ölkədə sosial məsuliyyət istiqaməti üzrə ixtisaslaşmış ekspertlərdənibarət münsiflər heyəti tərəfindən dəyərləndiriləcək.

Münsiflər heyəti təqdim olunacaq bütün layihələri üç başlıca meyar əsasında dəyərləndirəcək:

-Layihənin dayanıqlılığı

-Layihənin sosial təsiri

-Layihə xərclərinin səmərəliliyi

Nəzərə çatdıraq ki, müsabiqədəyalnız qeyri-hökumət və qeyri-kommersiya təşkilatları iştirak edə bilər.

Layihə qəbulu şərtləri ilə tanış olmaq və müsabiqəiştirakçısıkimi qeydiyyatdan keçmək üçün göstərilən link vasitəsilə Azercell-in rəsmi saytındakı müvafiq bölməyə keçid etmək olar:

https://bit.ly/sosial-layihe-az

Qeyd edək ki, sosial müsabiqəyə layihələrin qəbulu11.05.2022-ci il tarixindən etibarən bir ay ərzində aparılacaq. Layihədə iştirak üçün son qəbul tarixi 11 iyun 2022-ci ildir.

"Azercell Telekom" fəaliyyət göstərdiyi dövr ərzində hər zaman korporativ sosial məsuliyyət prinsiplərini üstün tutaraq cəmiyyətin sosial inkişafına fayda verən layihələrin təşəbbüskarı və dəstəkçisi kimi çıxış edib. Təhsil, mədəniyyət, idman, sağlamlıq, rəqəmsal savadın artırılması və digər sahələrdə müxtəlif miqyaslı layihələrin keçirilməsinə yardımçı olan şirkət 25 il ərzində sosial layihələrə 22 milyon ABŞ dollarından artıq vəsait xərcləyib.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1328



## Həkimlər xəstələrinin yanına uçaraq gedə biləcəklər

Xüsusi raketli kostyum hazırlanıb

**Böyük Britaniyada tibb işçiləri artıq xəstələrin yanına uçaraq gedə biləcəklər. Bunun üçün onlara xüsusi raketli kostyum hazırlanıb.**

Oxu.az xəbər verir ki, kostyumun sınağının uğurlu olduğu vurğulanıb. Yeni layihə səhiyyə işçilərinə xüsusən uçqar məntəqələrdə yaşayan xəstələrin yanına qısa müddət ərzində çatmağa imkan verəcək. Bunun üçün tibb işçilərinə xüsusi uçuş təlimi keçiləcək.

## Riva bölgəsində ev kirayələdilər

Hadisə əriylə dünən boşanan aktyorun evində yaşayacaq



**Türkiyəli müğənni Hadisəylə həyat yoldaşı Mehmet Dinçerlərin yaşayacaqları ev bəlli olub.**

Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, cütlük dünən boşanan aktyor İbrahim Çelikkolun İstanbulun Riva bölgəsində yerləşən evini kirayələyib.

Həftəsonu kirayələdikləri yeni evlərinə köçməyə planlaşdıran Hadisəylə Mehmet villa üçün aylıq 50 min lirə (təxminən 5 min 545 manat) ödəyəcək.

Qeyd edək ki, İbrahim Çelikkol bu gün ilk məhkəmə qarşılaşmasında 5 illik həyat yoldaşı Mihre Çelikkoldan boşanıb. Cütlüyün bu nikahdan Ali adlı bir oğlu var.

## İkinci dəfə boşandılar

"Gözəl hekayə idi, amma hər hekayənin bir sonu olur"



**Türkiyəli aktrisa Burcu Kıratlı ilə müğənni həyat yoldaşı Sinan Akçıl boşanıb.**

**Axşam.az xəbər verir ki, cütlük 9 ay davam edən evliliyin ardından ilk məhkəmə qarşılaşmasında sonlandırıb.**

**Mövzu ilə bağlı açıqlama verən Sinan bu sözləri deyib: "Artıq 5 aydır ayrılmışıq. Hər kəsə uğurlar. İlk boşanmada da bu qapıdan çıxmışdıq. Zatən 5 aydır evli deyildik. Bunu dəyişmək üçün heç nə etmədik. İncikliyim yoxdur. Burcu çox dəyərli insandır. Gözəl hekayə idi, amma hər hekayənin bir sonu olur. Bundan sonra görüşməyə davam edəcəyik".**

***Qeyd edək ki, cütlük ötən ilin fevral ayında ikinci dəfə evlənmişdi. Daha əvvəl aktyor İbrahim Çelikkol ilə həyat yoldaşı Mihre Çelikkolun boşandığı məlum olub.***

## Üçüncü övladı olacaq



**Məşhur aktrisa Mişel Uilyamsın üçüncü övladı olacaq.**

**Axşam.az xəbər verir ki, bu barədə aktrisa "Variety" nəşrinə müsahibəsində deyib.**

**Qeyd edək ki, Mişel həyat yoldaşı, rejissor Tomas Keyl ilə çəkiliş meydançasında tanış olub. 2020-ci ilin cütlük toy edərkən artıq ilk övlarını gözləyirdilər. Onların Hart adlı oğulları var. Bundan başqa, Mişelin Hit Ledcerdən 16 yaşlı Matilda adlı qızı da var.**

## Bu il fillər 60 nəfərin həyatına son qoyub

Daha 50 nəfər fillərin hücumları nəticəsində yaralanıb



**Cənubi Afrika ölkəsi Zimbabvedə ilin əvvəlindən bu günə kimi 60 nəfər fillərin hücumu nəticəsində həyatını itirib.**

**"Haber Global"ın məlumatına görə, bu barədə Zimbabve hökumətinin sözçüsü Nik Manqvana bildirib. O, qeyd edib ki, ilin əvvəlindən ölkədə daha 50 nəfər fillərin hücumları nəticəsində yaralanıb.**

**O, xatırladıb ki, keçən il fillərin hücumu nəticəsində 72 nəfər həyatını itirib.**

**Regionda fillərin izdihamlı sürülər halında hərəkət edərək yerli əhalinin tarlalarını qarət etdiyini vurğulayan Manqvana, bu vəziyyətin sakinləri fillərlə mübarizə aparmağa məcbur etdiyini vurğulayıb.**

**Brukinq İnstitutunun (ABŞ) 2021-ci ilə dair məlumatına görə, görə, Zimbabvedə təxminən 84 000 fil var.**



# 1 əsrlik sirr...

## Hitlerin yeməkləri əvvəlcə 15 qadına yedirilirdi

**Adolf Hitlerə qarşı uğursuz sui-qəsd planı 15 qadının həyatını zəhərə döndərdi. Hitlerin yeməklərinə zəhər qatılıb-qatılmadığını bilmək üçün nasistlər 15 qadından ibarət "yemək testi" qrupu formalaşdırıb. Yeməklər Hitlerin önünə gəlməzdən öncə bu qadınlar vasitəsilə test edilib, sonra isə Fürerə təqdim edilib. Bu dəhşət 1 əsrdən artıq sirr olaraq saxlanıb.**

Nəhayət, 2013-cü ildə 95 yaşlı alman qadın Marqot Völk 1940-cı illərdə yaşadığı dəhşət barədə "Der Spiegel" jurnalına danışdıqda qadınların qorxu dolu anlar yaşadığı gün üzünə çıxdı. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, yemək testi qrupuna daxil olarkən Margot 24 yaşındaymış. Berlindəki mənzilləri bombardmanda dağılır və onlar Polşa ərazisində yaşamağa başlayırlar. Margotun həyat yoldaşı Karl müharibəyə gedib. Margot nasistlərin şərq cəbhəsindəki qərargahında aşpaz işləməyə başlayıb. 1944-cü ildə Klaus Stauffenberg Hitlerə sui-qəsd məqsədilə hazırlanan "Valkyrie əməliyyatı"nda uğursuzluğa düçar olduqdan sonra faşistlər Fürerin həyatına hər hansı təhlükənin qarşısını almaq üçün bütün yeməklərin əvvəlcə başqalarına daddırılması üsulunu tətbiq etməyə başlayıb. Bu məqsədlə də 15 qadından ibarət "yemək testi" qrupu yaradıblar. Margot da bu qrupa daxil edilib. Margot nasist partiyasının üzvü olmayıb, lakin bunu gizlətmək və həyatını xilas etmək üçün qrupa daxil olmaqdan başqa çarəsi qalmayıb: "Səhər saat 11-dən günortayadək bizə ən müxtəlif yeməklər təqdim edilirdi. Hitler vegitarian idi, ona görə də yeməklərdə ət olmazdı. Ən keyfiyyətli, bahalı tərəvəzlərdən yemək hazırlanırdı. Xəyalımıza belə gətirmədiyimiz tərəvəzlər və yanında mütləq düyü, ya da makaron olardı. Çox ləzzətli yeməklər hiss edə bilmədik. Ölüm qorxusu ləzzətləri üstələyirdi. Hər dəfə yeməkləri daddıqda, görəsən zəhərlənəcəyikmi, öləcəyikmi, deyə qorxu, stress keçirirdik. Yemək bitdikdə və sağ qaldığımızı anladıqda göz yaşlarına boğulurduq. Qadınlar hönkür-hönkür ağlayırdı. Bu əziyyəti çəkdiyimiz üçün Hitlerə nifrət edirdik, nifrət edə-edə yeyirdik".

Qeyd edilir ki, faşist Almaniyasında yaşanmış bu dəhşət səhnələşdirilib və 21 mayda Nyu-Yorkun "Theatre Row" səhnəsində tamaşa qoyulacaq. Tamaşa "Hitler`s Tasters" adlanır. Tamaşanın senaristi Maykl Kholos Brooks "Bu durum gerçək bir həyat dramıdır. Bu vaxtadək elə bilirdik, Hitler haqqında ən qoprxunc gerçəklər aşkardır. Amma, gizli qalan çox şeylər varmış", söylədib.





**Məlahət Rzayeva**



# 30 il həbs cəzası aldı

## Qadın hamiləliyi qəsdən pozmaqda ittiham olunur

**Hadisə El-Salvadorda yaşanıb. Bu barədə "NTV.com.tr" məlumat yayıb. Məlumatda bildirilir ki, El-Salvadorda yaşayan Esme adlı qadın hamiləliyi qəsdən pozmaqda ittiham olunaraq 30 il azadlıqdan məhrum edilib.**



El-Salvador qanunlarına görə, hamiləliyin dayandırılması, abort bütün hallarda qadağandır və heç bir səbəb əsas olaraq qəbul edilmir. Məhkəmənin qərarı fəal qadınların təpkisinə səbəb olub. Fəallar Esmenin müdafiəsinə qalxıb. Etirazçılar bildirib ki, Esme 2 il əvvəl hamilə qalıb, lakin döl ana bətnində tələf olub, qadın bu səbəbdən dövlət xəstəxanalarından birində müalicə alıb. Lakin müalicə olunduğu müddətdə həbs edilib və istintaqa cəlb olunub. İnsan haqları üzrə beynəlxalq dərəcəli vəkil, "Qadın bərabərliyi Mərkəzi"nin icracı direktoru Paula Avila-Guillen bu durumun qadın xəstəliklərindən əziyyət çəkən xanımlara cinayət işinin açılmaması məsələsində indiyədək əldə edilmiş müsbət anlaşmaya zərbə vurduğunu deyib. Vəkil hesab edir ki, bu cür hallar abortun cinayət hesab edilməsi presidentini dünyada genişləndirə bilər. El-Salvadorda 180 qadın abort etdirdiyinə görə həbs cəzası alıb. Bu ölkədə qadınlar qarşılaşdıqları hər hansı qadın xəstəliklərini isbat etmək məcburiyyətindədir. Ancaq bu halda qadınlara abort etdirməyə icazə verilir. Xəstəliyini isbatlaya bilməyənlər və abort etdirənlərsə həbsə atılır. "Yurtdaşların Qrupu" adlı qadın təşkilatı isə hamiləliyin pozulmasının qadın xəstəliyi hesab edilməsi və bu durumda abortun vacib hal almasının qanunilaşdirilməsi yönündə fəaliyyət göstərir, aborta görə cəza alan qadınların azadlığının təmini üçün çalışır.

**Məlahət**

## "Nə qədər vaxtımın qaldığını heç kim bilmir"

Jurnalist Debora Ceymsin son paylaşımı izləyicilərini kədərləndirib



**2016-cı ildən bəri bağırsaq xərçəngi ilə mübarizə aparan tanınmış yazar, jurnalist Debora Ceymsin son paylaşımı izləyicilərini kədərləndirib.**

Axşam.az xəbər verir ki, yazar müalicənin artıq xeyrinin olmadığını bildirərək, pərəstişkarları ilə vidalaşıb:

"Heç yazmaq istəmədiyim mesaj. Biz hər şeyi sınadıq, amma bədənim sadəcə reaksiya vermir. Artıq müalicəni evdə davam etdiriəm. Nə qədər vaxtımın qaldığını heç kim bilmir. Yeriyə bilmirəm, günlərin çoxunu yatıram və adi bir şey kimi qəbul etdiyim dərmanlar çox işə yaramır. Dünyadakı bütün innovativ xərçəng dərmanları və yeni kəşflərə rəğmən bədənim bundan artıq davam edə bilməz. 5 ildən artıqdır ki, bunun mənim son Milad bayramı olacağını düşündüyüm, 40 yaşımı necə görməyəcəyim və uşaqlarımın orta məktəbə getdiyini görməyəcəyim haqqında yazırdım. Vidalaşacağımı yazmağı heç düşünməmişdim. Düşünürəm ki, bu, mənim içimdəki üsyankar ümid idi. İndi mənim üçün hər şey hər gün günəşin doğuşuna görməyə minnətdar olmaqla bağlıdır".

*Qeyd edək ki, Deboranın "The Sunday Times", "The Sun", "Daily Mail", "The Times", "Grazia, "Women's Health" kimi məşhur nəşrlərdə yazıları dərc olunub. O, son kitabını məhz xərçənglə mübarizəyə həsr edib.*

## Konsert zamanı uşaq dünyaya gətirib

Qadın yenidoğulmuş oğlunun şəklini "Instagram"da paylaşıb



**"Metallica" qrupunun Braziliyada konserti zamanı onun pərəstişkarlarından biri uşaq dünyaya gətirib.**

Oxu.az xəbər verir ki, hamiləliyin 39-cu həftəsində olan qadının sancıları mayın 7-də, qrup Kuritiba şəhərində çıxış edərkən başlayıb.

Uşaq "Enter Sandman" hitinin sədaları altında dünyaya gəlib. Körpəyə Luan adı verilib.

Qadın yenidoğulmuş oğlunun şəklini "Instagram"da paylaşıb və etiraf edib ki, konsertin bitəcəyinə üç mahnı qalmış ana olacağını gözləmirmiş.

Hadisədən xəbər tutan "Metallica" "Instagram" hesabının "hekayə" bölməsinə pərəstişkarının paylaşımını yerləşdirib.